AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ

İstiqamətin şifri və adı: HSM070000 Tarix
İxtisasın şifri və adı: HSM070008 Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi

Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının
magistrantı
Məmmədova Mərziyə Kamil qızının
magistr dərəcəsi almaq üçün

# "AVROPA BİRLİYİ VƏ TÜRKİYƏ ( XX ƏSRİN 90- CI İLLƏRİ)"

mövzusunda

## D İ S S E R T A S İ Y A İ Ş İ

Elmi rəhbər: dos. M.B.Fətəliyev
Kafedra müdiri: dos. M.B.Fətəliyev

B A K I – 2 0 02

YÜKSEKÖĞRETİM KURULU BAŞKANLIĞI
İNCELENMİŞTİR

# MÜNDƏRİCAT

GİRİŞ 3 - 9

I FƏSİL. Türkiyənin Avropa Birliyinə qatılmasına yönəl ilkin səylər. 10 - 22

§1.Ankara müqaviləsi və onun əsas məqamları.
§2.Brüssel müqaviləsi və protokolu, onların başlıca cəhətləri.
§3.E. Raynın raportu və Avropa Birliyinin mülahizələri.

II FƏSİL. Türkiyənin Avropa Birliyinə qəbulunu əngəlləyən «problemlər». 23 - 34

§1. «Kipr problemi» - Türkiyənin AB-yə qəbulunu «əngəlləyən amillərdən» biri kimi.
§2.Türkiyənin AB-yə qəbulu və «erməni soyqırımı» təbliğatı.
§3.Türkiyənin AB-yə qəbulunu əngəlləyən «insan hüquqları məsələsi».

III FƏSİL. Türkiyə – Avropa Birliyi münasibətlərinin perspektivləri. 35 - 49

§1.Avropa Birliyinin genişlənməsi məsələsi və Türkiyənin mövqeyi.
§2.Avropa Birliyinin Kardif, Vyana, Köln Zirvə Toplantıları və Türkiyə.
§3.Türkiyə Avropa Birliyinə namizəd ölkə kimi.

NƏTİCƏ 50 - 53

BİBLİOQRAFİYA 54 - 57

SUMMARY 58 – 59

ƏLAVƏLƏR (cədvəllər, müqavilələr, xəritələr).

# GİRİŞ

**Mövzunun aktuallığı.** Yeni dünya düzəninin formalaşmasında Türkiyə mühüm rol oynayır. Türkiyənin beynəlxalq durumunda və xarici siyasətində onun böyük dövlətlərlə və qurumlarla münasibətlər mühüm yer tutur. Türkiyə dövləti indiyə kimi bir sıra beynəlxalq (BMT və s.) və regional (NATO; AŞ; İKT və s.) qurumların üzvüdür. Türkiyənin beynəlxalq proseslərə inteqrasiyasında bu təşkilatların rolu önəmlidir.

Türkiyənin Avropaya və bütövlükdə dünyaya inteqrasiyasında Avropa Birliyinə[1] qatılması daha böyük əhəmiyyət kəsb edir. 1957-ci il Roma anlaşmasının 207/1-ci maddəsinə əsasən bu Birliyə üzv olmaq imkanı bütün Avropa dövlətləri üçün müəyyənləşdirilmişdir.[2] Türkiyə də Avropanın bu nüfuzlu və sayılan təşkilatına ( qurumuna ) daxil olmaq məqsədini qarşısına qoymuşdu. Türkiyənin AB-yə daxil olmaq istək və məqsədlərini aşağıdakı kimi formalizə etmək mümkündür:

- zaman-zaman onun üçün müxtəlif dövlətlər tərəfindən yaradılan geosiyasi problemlərin bu qurum vasitəsilə aradan qaldırılması;
- Türkiyənin Avropadakı iqtisadi inteqrasiya proseslərinə qatılması;

---

[1] 1950-ci ilin 9 mayında Fransa Xarici İşlər naziri Robert Şumanın Avropa ölkələrinin sənayesinin əsasını təşkil edən kömür və poladın istehsalı və istehlakı üçün ümumi bir təşkilatın yaradılması təklifi ilə Paris müqaviləsinin (18.04.1951.) imzalanması nəticəsində Avropa Kömür və Polad Birliyi yaradıldı və bununla da bugünkü Avropa Birliyinin təməli qoyuldu. 1957-ci ildə altı Qərbi Avropa dövlətləri (Almaniya, Fransa, Belçika, Hollandiya, Lüksemburq və İtaliya) arasında imzalanan Roma müqaviləsi ilə Avropa İqtisadi Birliyinə çevrilən AKPB siyasi forma almış və beynəlxalq təşkilat statusu qazanmışdır. 1993-cü ilin noyabrından Avropa Birliyi adlanır.

[2] E. B. Haas. The Uniting of Europe – Political, Social and Economical Forces - 1950-1957. London, 1958.

- ölkədaxili bir sıra iqtisadi-maliyyə səciyyəli problemlərin ( işsizlik, səhiyyə, maarif ) həllində AB-nin dəstəyindən istifadə və s.

1963-cü ildən etibarən AB-yə qatılmaq prosesinə başlamış Türkiyə dövləti hələ də bu məqsədinə yetişməmişdir. Beynəlxalq aləmdə və regionda sözsahibi olan Türkiyənin AB-yə yolunun belə «uzanması» bir sıra dövlətlər və dairələr tərəfindən yaranan əngəllər - «məsələlər»lə əlaqədar olmuşdur. Bu «məsələlər» - problemləri 2 qrupda ümumiləşdirmək olar. Siyasi səciyyəli əngəllər bunlardır:

- Yunanıstanın Türkiyəyə ərazi iddiaları və bununla əlaqədar vaxtaşırı törədilən münaqişələr, məsələlər («Egey böhranları», «Limmi məsələsi» və s.);
- «Kipr problemi» və onun ətrafında Türkiyəyə qarşı yönələn çeşidli geosiyasi maraqlar;
- «Erməni soyqırımı» əfsanəsi və antitürk təbliğatı kontekstində Türkiyəyə qarşı aparılan siyasət;
- «Türkiyədə insan hüquqları məsələsinin» vaxtaşırı gündəmə gətirilməsi, bu istiqamətdə Türkiyə dövlətinə qarşı olan PKK terrorizmi əleyhinə mübarizədən müxtəlif niyyətlər üçün istifadə olunması;

İqtisadi səciyyəli əngəllər sırasına isə bunları aid etmək mümkündür:

- Türkiyədən çoxlu işçi qüvvəsinin Avropaya axınının qitə dövlətlərində bəzi sosial problemlərin ortaya çıxarması ehtimalından yaranan narahatlıq;
- Türkiyə toxuculuq sənayesinin Avropada güclü rəqabət yarada bilməsi təhlükəsi və s.

Türkiyə özünün çağdaş geosiyasi durumunu və iqtisadi inkişaf perspektivlərini əsas tutaraq AB-yə qatılmaqda ( bu yolda ortaya çıxan təbii maneələrə və yaradılan süni əngəllərə baxmayaraq) israrlıdır.

**Problemin öyrənilmə dərəcəsi.** Türkiyə - AB münasibətləri siyasi-diplomatik və tarixi-politoloji araşdırmalarda mühüm yer tutur. İstər Türkiyə, istərsə də Avropa ( Qərb ) Araşdırma mərkəzləri problemin müxtəlif aspektlərinə dair təhlillərini, araşdırmalarını aparmışlar. Bu araşdırmaları əsasən aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar:

- Türkiyənin AB-yə qatılmasında əsas tutduğu məqsəd və niyyətlər.
- AB-yə qatılma prosesindəki başlıca mərhələlər və onların əsas xüsusiyyətləri.
- Türkiyənin AB-yə qəbulunu əngəlləyən məqamlar ( «məsələlər» ).
- Türkiyənin bu quruma qatılmasına dair baxışlar və bu işin perspektivləri.

Problemə dair elmi araşdırmalar sırasında F. Armaoğlunun[1], E. Nomer - O. Eskiyurt[2], A. Bulaç[3], M. E. Birand[4], E. Haas[5], U. Kılınc[6], S. İlkin – İ. Tekeli[7], R. Karluk[8] və başqalarının tədqiqatları maraq doğurur.

İlk öncə A. Bulaçın «Avropa Birliyi və Türkiyə» (İstanbul, 2001) kitabı haqqında bəhs etmək lazım gəlir. Müəllif Türkiyə – AB münasibətlərinin geniş kompleksini araşdırmışdır. Burada aşağıdakı elmi problemlərə daha mühüm diqqət yetirmişdir:

- Türkiyə – AB əlaqələrinin tarixi qısa şəkildə nəzərdən keçirilmişdir;
- Türkiyənin AB-yə qatılmasını şərtləndirən amillər açıqlanmışdır;
- AB-yə qəbula dair Maastrixt, Amsterdam və Kopenhagen kriteriyaları (meyarları) və Türkiyə ilə bağlı məqamlar araşdırılmışdır;

---

[1] F. Armaoğlu.XX yüzyıl siyasal tarihi. İstanbul, 1995.
[2] E. Nomer ve O. Eskiyurt. Avrupa sözleşmeleri. İstanbul, 1975.
[3] A. Bulaç. Avrupa Birliği ve Türkiye. Ankaral, 2001.
[4] M. E. Birand. Türkiyenin Ortak Pazar Macerası – 1959-1985. İstanbul, 1987.
[5] E. B. Haas. The Uniting of Europe – Political, Social and Economical Forces - 1950-1957. London, 1958.
[6] U. Kılınc. Türkiye – Avrupa Toplulukları ilişgileri – 1983-1988. Ankara, 1990.
[7] İ. Tekeli ve S. İlkin. Türkiye ve Avrupa Topluluğu. Ankara, 1993.
[8] R. Karluk. Avrupa Birliği ve Türkiye. İstanbul, 1998.

- Türkiyə – AB əlaqələrinin perspektivlərinə dair baxışlara və mövqelərə münasibət bildirilmişdir;

Türkiyə – AB münasibətlərinə dair bir sıra sənəd və materialların kitaba əlavə olunması onun elmi dəyərini daha da artırmışdır.

Bu araşdırmalar arasında İstanbul Mərmərə Universitetinin əməkdaşı, araşdırmaçı D. Vardarın «Türkiyə – Avropa Topluluğu ilişkiləri»[1] məqaləsi xüsusilə dəyərlidir. Məqalədə Türkiyənin AB-yə göstərdiyi maraq təhlil olunmuşdur. Burada əsas diqqət Türkiyənin Ab-yə qatılmasına dair qəbul olunan sənədlərin təhlilinə verilmişdir. Müəllif AB-nin müvafiq komissiyalarının Türkiyə ilə bağlı bir sıra raportlarını ( Rayn və s. ) dərindən araşdırmışdır. D. Vardarın Türkiyə – AB münasibətlərinin gələcəyinə dair mülahizə və təklifləri diqqəti çəkir.

Digər bir araşdırmaçı – B. Kale[2] ( Avrasiya Strateji Araşdırmalar Mərkəzinin əməkdaşı ) özünün geniş əhatəli tədqiqatlarında bu kimi maraqlı və elmi dəyəri olan məsələlərə toxunmuşdur:

a) Türkiyənin AB-yə qatılması istiqamətində qəbul edilən sənədlərin əsas cəhətləri;

b) Türkiyənin AB-yə qatılmasında süni əngələ çevrilən «Kipr problemi» və ondan siyasi divident qazanmaq istəyən tərəflərin fəaliyyəti;

c) «Türkiyədə insan hüquqları», edam cəzası və Cənub-Şərqi Anadoludakı bəzi problemlərdən yararlanma istəkləri;

ç) Türkiyənin AB-yə qatılmağa namizəd olan dövlətlərlə müqayisəsi.

İstanbul Mərmərə Universitetinin digər bir araşdırmaçısı G. Özcanın «Türkiyədə siyasal rejim ve dış politika 1983 - 1993»[3] mövzusundakı araşdırmasında da Türkiyə – AB əlaqələrinə toxunulmuşdur. Belə ki, burada

---

[1] D. Vardar. Türkiye – Avrupa Topluluğu ilişkileri. «Türkiye dış politikasının analizi», İstanbul, 1994.
[2] B. Kale. Türkiyenin Avrupa serüveninde yeni sayfa: Katılım Ortaklığı Belgesi. «Stratejik anali» jurnalı, №8, İstanbul, 2000.
[3] G. Özcan. Türkiyede siyasal rejim ve dış politika 1983 – 1993. «Türkiye dış politikasının analizi», İstanbul, 1994.

əsasən, Türkiyənin müasir xarici siyasətində onun AB ilə əlaqələrinə verilən yer dəyərləndirilmişdir. Türkiyədəki siyasi rejimin XX əsrin II yarısında baş verən hərbi çevrilişlərin və konstitusion hökumət dəyişikliklərinin dövlətin xarici siyasətinə təsiri, xüsusilə də AB ilə münasibətlərinə gətirdiyi çalarlar tədqiqatda öz yerini tapmışdır.

D. Vardarın digər bir araşdırmasında «Türkiyenin Batı Avrupa kurumlarına girişi ve kamuoyu»[1] - Türkiyədaxili siyasi qüvvələrin ( modernistlər, islamçılar, millətçilər ) təsiri, fərqli yönümlərinin ( Qərb, Cənub, Şərq ) Türkiyə – AB münasibətlərinə dair baxışları təhlil olunmuşdur. Həmin siyasi yönümlərin məsələyə yanaşmasındakı fərqli məqamlar müəyyən sənədlər və statistik materiallar əsasında öyrənilmişdir.

«Avrupa Birliyi el kitabı»[2] adlı kitab da diqqəti çəkir. Araşdırmaçılardan Ö. Bozqurd, İ. Ortaylı, T. Arat və başqalarının məqalələrindən ibarət olan bu topluda Türkiyə – Avropa Birliyinin yaranması və tarixinə dair çoxlu məlumatlar da vardır. Kitaba əlavə edilən sxemlərdə, statistik cədvəllərdə öz əksini tapan məlumatlar Türkiyə – AB əlaqələrinin öyrənilməsi üçün olduqca faydalıdır.

Türkiyə – AB münasibətlərinin öyrənilməsində bir sıra siyasi – diplomatik səciyyəli sənədlərin araşdırılması bizcə daha məqsədə müvafiqdir. Həmin sənədlər sırasında daha önəmliləri aşağıdakılardır:

- Türkiyə ilə Avropa İqtisadi Birliyi arasındakı Ortaklık Anlaşması ( Ankara müqaviləsi, 12 sentyabr 1963 ). Habelə ona əlavə olaraq imzalanan Maliyyə Protokolu;
- Qatma Protokol ( Brüssel, 23 noyabr 1970 ) və II Maliyyə Protokolu;
- Raynın Raportu ( oktyabr 1989 );

---

[1] D. Vardar. Türkiyenin Batı Avrupa kurumlarına girişi ve kamuoyu. «Türkiye dış politikasının analizi», İstanbul, 1994.
[2] Avrupa Birliği el kitabı. Ankara, 1995.

- Avropa Birliyi Avropa Şurasının son toplantılarının (Lüksemburq, Vyana, Helsinki və s.), habelə Avropa Parlamentinin 1987-ci il və 2002-ci il qərarları.

Bu sənədlərdə Türkiyənin, AB-yə qatılması ilə əlaqədar üzərinə götürdüyü öhdəliklər, AB tərəfindən zaman - zaman ortaya qoyulan yeni şərtlər öz əksini tapmışdır. İkitərəfli əlaqələrin tənzimlənməsi mexanizmi də sənədlərdə ifadə olunmuşdur.

Türkiyə – AB münasibətlərinə dair elmi-siyasi baxışlar Azərbaycan mətbuatında vaxtaşırı dərc olunan bir sıra yazılarında da araşdırılmışdır. Bu yazılarda Türkiyə – AB münasibətlərinə ümumtürk birliyi kontekstində yanaşma ilə bağlı başlıca məqamlar nəzərdən keçirilmişdir.

Magistr dissertasiyasının yazılmasında İnternet saytlarından əldə etdiyimiz materialların da böyük əhəmiyyəti olmuşdur. Bu materialların başlıca dəyəri ən son dövrün proses və hadisələrini işıqlandırmasıdır.

**Dissertasiyanın məqsəd və vəzifələri**. Tədqiqatın əsas obyekti Türkiyə – AB münasibətlərinin araşdırılmasıdır. Burada aşağıdakı başlıca vəzifələr qarşıya qoyulmuşdur:

- Çağdaş dünya düzənində Türkiyənin yeri və onun beynəlxalq ( Avropadakı ) inteqrasiyada iştirakı məsələlərinin araşdırılması;
- Türkiyənin AB-yə qatılmasına dair məqsədlərin ( geosiyasi, iqtisadi və siyasi ) təhlili;
- Türkiyənin AB-yə daxil olmasına yönəlik prosesin izlənilməsi və bu fonda başlıca mərhələlərin nəzərdən keçirilməsi;
- Avropa dövlətlərinin Türkiyə – AB münasibətlərindəki fərqli mövqelərinin və onların səbəblərinin öyrənilməsi;
- Türkiyədaxili siyasi qüvvələrin AB ilə münasibətlərə yanaşmada əsas tutduqları fərqli mövqelərin açıqlanması;

- Türkiyənin AB-yə qəbulunu əngəlləyən «məsələlər»in təhlili. Bu istiqamətdə «Kipr prblemi», «erməni soyqırımı», «Türkiyədə insan hüquqları» kimi məsələlərdən məqsədli istifadə xəttinin araşdırılması;
- 11 sentyabr hadisələrindən sonrakı beynəlxalq şəraitin Türkiyə – AB münasibətlərinə təsiri məsələlərinin təhlili;
- Türkiyə – AB münasibətlərinin perspektivlərinin araşdırılması və bununla əlaqədar olaraq fərqli mövqelərin qarşılaşdırılması, müvafiq mülahizələrin ortaya qoyulması.

# I FƏSİL

## Türkiyənin Avropa Birliyinə qatılmasına yönəlik ilkin səyləri.

XX yüzilliyin 50-ci illərindən etibarən Türkiyənin Avropa qurumlarına inteqrasiya prosesi genişlənməyə başladı. Qitə dövlətləri ilə iqtisadi və ticari əlaqələr qurmağa çalışan Türkiyə Cümhuriyyəti Avropa İqtisadi Birliyi ilə əlaqələrə mühüm önəm verirdi. Türkiyənin qırx ildən artıq üzv olmağa çalışdığı keçmişdə Avropa İqtisadi Birliyi, indi isə Avropa Birliyi adlandırılan təşkilat nədir? Nə məqsədlə yaradılıb?

Əvvəlcə onu qeyd edək ki, bu Birlik ortaq məqsədləri bölüşən və ortaq dəyərlər ətrafında toplanan ölkələrin öz aralarında meydana gətirdikləri böyük bir birlikdir. Bu birliyin təşəkkülündə iqtisadi maraqların inteqrasiyası qədər siyasi və sosial bütünləşmənin hədəfi də vardır. Almaniya, Belçika, Fransa, Hollandiya, İtaliya, Lüksemburqun qurduğu və dörd genişləmə nəticəsində Danimarka, İngiltərə, İrlanda, İspaniya, Portuqaliya, Yunanıstan, Avstriya, Finlandiya və İsveçin də tərkibinə qatılması nəticəsində 1995-ci ildə 15 Avropa ölkəsindən ibarət olan və Gömrük Birliyi ilə tamamlanan bir bütünləşmə ilə üzbəüz dayanmışıq. Bu Birliyin məqsədi, üzv ölkələrin əvvəlcə iqtisadi birlik olmaqla nəticədə siyasi birliyə nail olunmasıdır. Ancaq belə ortaya çıxacaq olan böyük bir bazarın yaradacağı imkanlardan istifadə etməklə Avropaya əvvəlki gücünü qaytarmaq, Birliyə üzv olan ölkə xalqlarının rifah səviyyəsini yüksəltmək olar. Bu təşəbbüsün arxasında yüz illərdir gündəmdə olan Birləşmiş Avropa Dövlətləri fikrinin həyata keçirilməsi arzusu vardır. Orta əsrlərdən keçən əsrədək beyinlərdə bir ideal olaraq qalan bu fikir, Avropa ölkələri arasındakı

iqtisadi, hərbi və siyasi rəqabətlər və rəqabətlərin böyük müharibələrə səbəb olmasına görə gerçəkləşməmişdir. İxtilaflara səbəb iqtisadi qaynaqlar və Bazar olduğundan Fransa Xarici İşlər naziri Robert Şumanın təklifi ilə altı Avropa dövləti bir yerə toplaşaraq kömür və dəmir maddələri ilə polad sənayesini idarə edəcək bir yüksək nüfuzlu təşkilat yaratmağı qərara aldılar.

Yuxarıda qeyd edildiyi kimi, 1950-ci ilin 9 mayında Fransa Xarici İşlər naziri Robert Şuman Fransa və Almaniya ilə, daha sonra onlara qoşulmaq istəyəcək digər Avropa ölkələrinin kömür və polad qaynaqlarını bir yerə toplamaq haqqında təkliflə çıxış etdi. Aradan bir il keçməmiş, yəni 18 aprel 1951-ci ildə Fransa, Almaniya Federativ Respublikası, Belçika, İtaliya, Hollandiya və Lüksemburq Avropa Kömür və Polad İttifaqını quran Paris müqaviləsini imzaladılar. Bu müqavilənin ardınca 27 may 1952-ci il Avropa Təhlükəsizlik müqaviləsi imzalandı. Ancaq 30 avqust 1954-cü ildə Fransa parlamenti uzun müzakirələrdən sonra bu müqaviləni rədd etdi. 20 – 23 oktyabr 1954-cü ildə London Konfransından sonra Brüssel müqaviləsinin qəbul edilməsinə bağlı anlaşmalar Parisdə imzalandı və beləliklə Qərbi Avropa Birliyi meydana gəldi. 1 və 2 iyun 1955-ci ildə Messinada toplanan Altıların Xarici İşlər nazirləri Avropanın bütünləşməsinin iqtisadiyyatın bütün sahələrini əhatə edəcək bir şəkildə genişləndirilməsinə qərar verdilər. 1957-ci martın 25-də Avropa İqtisadi Birliyi və Avropa Atom Enerjisi Birliyini quran müqavilə Romada imzalandı. 1 yanvar 1958-ci ildə Roma müqavilələri qüvvəyə mindi, AİB və EURATOM komissiyaları Brüsseldə quruldu. 4 yanvar 1960-cı ildə Britaniyanın buraya qoşulması ilə Avropa Sərbəst Ticarət Bölgəsini quran Stohkolm Razılaşması imzalandı. 30 iyul 1962-ci ildə ortaq kənd təsərüffatı siyasətinin başlanılmasına qərar verildi və bu sahədə ilk addımlar atıldı. 1 – 2 dekabr 1969-cu ildə Lahey Zirvəsində Birliyin dövlət və hökumət başçıları ortaq kənd təsərüffatı siyasəti üçün keçid dönəminə son verdilər. 1970-ci ilin 30 iyununda dörd gələcək üzv Britaniya Krallığı, Danimarka, İrlandiya və Norveç ilə

müzakirələr Brüsseldə başladı. 1972-ci ilin 22 yanvarında Birləşmin Krallıq, Danimarka, İrlandiya və Norveç Brüsseldə imzaladıqları müqavilə ilə Birliyin üzvü oldular. Bu müqavilə 1 yanvar 1973-cü ildən qüvvəyə mindi (Norveç referendumun nəticələrinə görə Birliyə üzv ola bilmədi). 9 və 10 dekabrda Birliyin dövlət və hökumət başçıları Parisdə toplaşdılar. Bu toplantının qərarlarına görə, Birlik ildə üç dəfə Avropa Zirvəsi adı altında toplanır, Avropa Parlamentinə seçkilər keçirilirdi. 28 fevral 1975-ci ildə Birlik ilə 46 Afrika, Karib və Sakit okean dövlətləri arasında ilk müqavilə Lomedə imzalandı. 6 və 7 iyul 1978-ci ildə Fransa və Almaniya Bremendə toplaşan Avropa Zirvəsində pul sistemində işbirliyini nəzərdə tutan bir sistem (Avropa Pul Sistemi) qurmağı təklif etdilər. 1979-cu il 13 martda APS fəaliyyətə başladı. Elə həmin ilin 28 mayında Yunanıstanın üzvlüyünə dair müqavilə imzalandı. 7 – 10 iyunda Avropa Parlamenti üçün seçkilər keçirildi. 1 yanvar 1981-ci ildə Yunanıstan Birliyə üzv oldu. 28 fevral 1984-cü ildə informasiya texnologiyasında araşdırma və inkişafla əlaqədar Esprit proqramı qəbul edildi. 14 – 17 iyunda Avropa Parlamentinə ikinci dəfə seçkilər keçirildi. 2 – 4 dekabr 1985-ci ildə Lüksemburqda toplanan Avropa Zirvəsi Roma müqaviləsində dəyişikliklər etmək və Avropanı bütünləşdirmək müddətini canlandırmaq məsələsində razılığa gəldilər. 1986-cı ilin 1 yanvarında İspaniya və Portuqaliya Birliyə üzv oldular. 15 və 18 iyun 1989-cu ildə Avropa Parlamentinə üçüncü dəfə seçkilər keçirildi. 17 iyul 1989-cu ildə Avstriya Birliyə üzv olmaq üçün müraciət etdi. Həmin ilin 9 dekabrında Strasburqda toplanan Avropa Zirvəsi hökumətlərarası bir konfrans keçirilməsinə qərar verdi. 1990-cı ilin 29 mayında Avropa Bankının qurulması haqqında Parisdə müqavilə imzalandı. Həmin ilin 19 iyununda sərhədlərdəki nəzarəti qadağan edən Şengen müqaviləsi imzalandı. 4 iyulda Kipr, 16 iyulda isə Malta Birliyə üzv olmaq üçün müraciət etdi. 14 dekabrda biri iqtisadi və pul birliyi, digəri siyasi birlik mövzusu əsas olmaqla hökumətlərarası iki konfrans Romada başladı. 1991-ci ilin 1 iyulunda İsveç Birliyə üzv olmaq istəyini bildirdi. 9 və 10 dekabrda Avropa Zirvəsi

Maastrixdə toplandı. 7 fevral 1992-ci ildə Avropa Birliyi müqaviləsi Maastrixdə imzalandı. Bu müqavilə 20 iyunda İrlandiyada, 20 sentyabrda Fransada, 18 may 1993-cü ildə Danimarkada keçirilən referendumda təsdiqləndi. 18 martda Finlandiya, 25 martda Norveç Birliyə üzv olmaq üçün müraciət etdi. 11 – 12 dekabrda Avropa Zirvəsi Edinburqda toplandı. 1 yanvar 1993-cü ildən Ortaq Bazarın qurulması başa çatdı. 1993-cü il 1 noyabrdan isə Maastrix müqaviləsi fəaliyyətə başladı. 1993-cü ilin 22 iyununda Kopenhagendə keçirilən Zirvə görüşündə Avropa Birliyi bu qurumun genişlənməsinin Mərkəzi Avropa ölkələrini də əhatə etməsini qəbul etdi və eyni zamanda üzvlük üçün müraciət edən ölkələrin tam üzvlüyə qəbul edilmədən öncə qəbul etməsi lazım olan şərtləri də qətiləşdirdi. Bu şərtlər siyasi, iqtisadi və birlik məsələləri üzrə üç qrupda toplanmışdı: 1 aprel 1994-cü ildə Macarıstan, 8 apreldə Polşa Avropa Birliyinə üzv olmaq üçün müraciət etdi. 9 və 12 iyunda Avropa Parlamentinə dördüncü dəfə seçkilər keçirildi. Avstriyadakı referendumda isə bu dövlətin Avropa Birliyinə üzvlüyü təsdiqləndi. 24 və 25 iyunda Korfuda keçirilən Avropa Zirvəsində Avstriya, Finlandiya, İsveç və Norveç Avropa Birliyinə üzvlük müqavilələrini imzaladılar. 16 oktyabrda Finlandiyada, 13 noyabr İsveçdə keçirilən referendumda bu dövlətlərin Avropa Birliyinə üzvlüyü rəsmiləşdi. Norveçdə isə 27 və 28 noyabrda keçirilən referendumlarda yenə AB üzvlüyü rədd edildi. 1995 1 yanvarda İsveç, Finlandiya və Avstriyanın AB-yə tam üzv olması ilə AB-nin üzvlərinin sayı 15-ə çatdı. 1995-ci ilin 26 martında 7 AB ölkəsi arasında Şengen müqaviləsi fəaliyyətə başladı. 1996-cı ilin 31 yanvarında isə bu 7 ölkə ortaq pul vahidinə qatılmaq üçün gərəkli şərtləri yerinə yetirdi və AB Şurasının 2/3 səs çoxluğu ilə Avropa Mərkəzi Bankı və vahid pul sisteminə keçilməsinə qərar verildi. 1996-cı ilin 5 oktyabrında Dublində, 1997-ci ilin 16 iyununda Amsterdamda, 1997-ci ilin dekabrında Lüksemburqda, 1998-ci ilin iyununda Kardifdə, 1998-ci ilin 11 – 12 dekabrında Vyanada AB Zirvə toplantıları keçirildi. 2000-ci ilin 13 – 14 oktyabrında Fransanın Biarritz şəhərində AB

dövlətlərinin görüşü keçirildi. Bu toplantıda Birliyin konstitutsiyasının əsasını təşkil edəcək 54 maddəlik «Əsas Haqlar Şərti» qəbul edildi.

Türkiyə Dünya müharibəsindən sonra yeni dünya düzəninin qurulması səbəbi və xüsusilə SSRİ-nin Qars, Ərdəhan və Artvinə ərazi iddialarını sürməsi, boğazların statuslarının dəyişdirilməsi tələbilərinin ortaya çıxması nəticəsində 1949-cu ildə NATO-ya müraciət etdi. Türkiyə Avropanın hərbi təşkilatına nə qədər tez qəbul olundusa, onun Avropanın iqtisadi təşkilatlarına qəbulu bir o qədər çox çəkdi.

1959-cu ilin 31 iyulunda Türkiyə AİB ilə əlaqələr qurmaq üçün ilk təşəbbüs göstərdi.[1] Az sonra, yəni həmin il sentyabrın 11-də Avropa İqtisadi Birliyinin Nazirlər Şurası Türkiyə və Yunanıstanın Ortaqlıq müraciətlərini qəbul etdi. AİB Türkiyə ilə bağlı müəyyən hazırlıq tədbirlərinin görülməsinə qərar verdi. Onun xüsusi komissiyası Türkiyə təmsilçiləri ilə sentyabrın 28-30-da ilk görüş keçirdi.[2]

## § 1. Ankara müqaviləsi və onun əsas məqamları

İlkin hazırlıq tədbirlərindən sonra Türkiyə ilə AİB arasında 1963-cü il sentyabrın 12-də Ortaqlıq ( Ankara ) müqaviləsi imzalandı.[3] Elə həmin gün ona əlavə olaraq Birinci Maliyyə Protokolu da imzalandı. Müqavilənin ön sözündə türk xalqının yaşayış standartlarının yüksəldilməsi məqsədilə AİB-in göstərəcəyi dəstəyin önəmi vurğulanırdı. Burada həm də Türkiyənin gələcəkdə AİB-ə tam üzvlüyü hədəfə alması da qeyd olunurdu. Üç hissədən və otuz üç maddədən ibarət olan bu müqavilə Türkiyə üçün bir sıra dönəmləri və vəzifələri müəyyənləşdirirdi. Bu müqavilə Türkiyənin AİB-ə qatılması yolunda ilk addım hesab olunur.

---

[1] İ. Tekeli ve S. İlkin. Türkiye ve Avrupa Topluluğu. Ankara, 1993.s.45.
[2] Yene orada. s.47.
[3] Ankara Anlaşması ve Katma Protokol. 12 Eylül 1963. www.mfa.gov.tr

Bəzi səbəblərə görə AB Türkiyənin tam üzvlüyə qəbuluna qədər müəyyən mərhələləri keçməsini lazım bildi. Buna əsasən də beş illik hazırlıq dönəmi və on iki illik keçid dövrü müəyyənləşdi. AB belə hesab edirdi ki, Türkiyə 1957-ci il Roma müqaviləsinin nəzərdə tutduğu bütün iqtisadi inteqrasiya şərtlərini yerinə yetirəcək bir duruma gəldikdə tam üzvlüyə qəbul edilə bilər. Əslində, keçid dönəminin əsas xüsusiyyəti AB ilə Türkiyə arasında tam bir gömrük birliyinin reallaşdırılmasını nəzərdə tuturdu. Müqavilənini konkret bölümlərinə və maddələrinə gəldikdə isə burada bir sıra konkret məsələlərdən bəhs olunurdu.[1] Onlardan bəzilərinə diqqət yetirək:

a) Türkiyə iqtisadiyyatının sürətli inkişafı;

b) Türk xalqının həyat səviyyəsinin yüksəldilməsi;

c) Tərəflər arasında ticarət və iqtisadi əlaqələrin fasiləsiz və tarazlı şəkildə gücləndirilməsi

Bu maddədə hazırlıq, keçid dönəmləri ilə yanaşı həm də bir son dövr nəzərdə tutulurdu. Sonrakı maddələrdə ayrı-ayrı dönəmlərdə həlli vacib olan problemləri nəzərdən keçirilirdi. Belə ki, hazırlıq dönəmində Türkiyə sonrakı iki mərhələdə həyata keçirəcəyi vəzifələri gerçəkləşdirmək üçün AB vasitəsilə iqtisadiyyatı möhkəmləndirməli idi ( III maddə).[2] Bu kimi məsələlər müqaviləyə əlavə edilən Müvəqqəti protokolda və Maliyyə protokolunda konkret məqamlar üzrə işlənilmişdi.

Hazırlıq dönəmi beş il sürməli idi. III maddədə keçid dönəmində tərəflərin qarşılıqlı öhdəlikləri öz yerini tapmışdı. Burada Türkiyə ilə AB arasında Gömrük Birliyinin getdikcə inkişaf etdirilməsi və Türkiyənin iqtisadi siyasətinin (proqramlarının) Birliyə yaxınlaşdırılması kimi mühüm vəzifələr qarşıya qoyulmuşdu. Keçid dönəmi on iki il olmalı idi. Son dönəm Gömrük Birliyinin möhkəmləndirilməsinin və tərəflərin iqtisadi siyasətləri arasındakı

[1] Ankara Anlaşması ve Katma Protokol. 12 Eylül 1963. www.mfa.gov.tr
[2] Yene orada, maddə III.

koordinasıyanın gücləndirilməsi ilə səciyyələnirdi (V maddə).[1] Müqavilə Türkiyə ilə AB arasında əlaqələrin inkişafı üçün müəyyən işçi qurumların (Ortaqlıq Şurası və s.) yaradılmasını önə çəkirdi (6,7 maddələr). Müqavilənin V bölümündə («Gömrük Birliyi» adlanır) tərəflər arasındakı gömrük siyasətinin konkret məqamlarına toxunulurdu. Burada tərəflər arasında fəaliyyətdə olan gömrük vergilərinin və onların miqdarlarının bərabər qaydada azaldılması xüsusi olaraq vurğulanırdı. III bölümdə ( XII – XXI maddələr) tərəflər arasındakı iqtisadi əlaqələrin perspektivləri məsələləri şərh olunurdu. Bu zaman işçi qüvvəsinin və sərmayə qoyuluşunun sərbəst hərəkəti kimi konkret sahələrdə iş aparılması tövsiyə edilirdi. III hissə əsasən ümumi səciyyəli məsələləri əhatə edirdi. Burada Ortaqlıq Şurasının tərkibi, iş, prinsip və mexanizmləri (XXII – XXV) nəzərdən keçirilirdi.

1963-cü il Ankara Ortaqlıq müqaviləsi protokol və Maliyyə Protokolu ilə bir sıra detallar üzrə daha da konkretləşdirildi. Müvəqqəti Protokol on bir maddədən ibarət idi. Burada müqavilənin təsdiqindən sonra görüləcək işlərin əsas məqamları, xüsusən də təşkilati məsələlərdən bəhs olunurdu. Ən çoxu da Türkiyə ilə AB dövlətləri arasındakı mal dövriyyəsinə dair görüləcək işlər qeyd olunurdu. Maliyyə Protokolu 9 maddədən ibarət olmaqla bir sıra konkret vəzifələri özündə ehtiva edirdi:

a)Türkiyə iqtisadiyyatının əlverişliliyinin artırılmasına yönəliklayihələrə maliyyə dəstəyi;

b)Türk iqtisadiyyatına dair layihələrlə Avropa Sərmayə Bankı arasında əlaqələrin intensivləşdirilməsi və s.[2]

Türkiyə ilə AİB arasındakı Ankara müqaviləsi 1964-cü il dekabrın 1-də fəaliyyətə başladı və Ortaqlıq Şurasının 1-ci toplantısı keçirildi.[3] Sonralar, yəni 1976-cı ilin oktyabrında ilk Gömrük İş Birliyi Komitəsinin toplantısında

---

[1] Ankara Anlaşması ve Katma Protokol, 12 Eylül 1963, maddə V. www.mfa.gov.tr.
[2] E. Nomer ve O. Eskiyurt. Avrupa Sözleşmeleri. İstanbul, 1975. s.635.
[3] Yene orada. s.648.

müzakirələr aparıldı. 1964-70-ci illərdə keçirilən bu müzakirələrdə indiyədək görülən işlər və perspektivdəki vəzifələr araşdırılırdı.

## § 2. Brüssel müqaviləsi və protokolu, onların başlıca cəhətləri.

Türkiyənin AB-yə qatılması üçün müəyyən hazırlıq dönəmi çox çəkdi. Yalnız 1970-ci ildə imzalanan sənədlərlə Hazırlıq dönəminə son verildi və Keçid dönəminin başladılması qərara alındı. Belə ki, 1970-ci il noyabrın 23-də AB ilə Türkiyə arasında Brüsseldə Qatılma müqaviləsi və Protokolu imzalandı.[1] Bu müqaviləyə əlavə olaraq həm də II Maliyyə Protokolu da təsdiqləndi. Müqavilə 1973-cü il yanvarın 1-dən qüvvəyə mindi. Göründüyü kimi onun imzalanması ilə qüvvəyə minməsi arasında da xeyli vaxt keçdi. Qatılma Protokolu 1971-ci il iyulun 5-də TBMM –də 69 səsə qarşı 149 səslə qəbul edildi.[2] Qatılma Protokolunun iki mühüm özəlliyi var idi:

1. Türkiyənin gömrük həddləri müəyyənləşdirilərək sıfıra endirilməli idi. Buna görə də müxtəlif mallar üzrə 12 illik və 22 illik müddətlər müəyyənləşdirildi (Türkiyə tərəfi bu məsələlrin bir qismini indiyədək belə reallaşdıra bilməmişdir).
2. Türkiyə işçi qüvvəsinin AB üzvü olan dövlətlərdə sərbəst hərəkəti.

Qatılma Protokolu dörd hissədən və altmış dörd maddədən ibarətdir. Onun «malların sərbəst hərəkəti» adlı birinci hissəsində əsasən mal mübadiləsi sahəsində olan problemlərin aradan qaldırılmasına toxunulmuşdur. Bu hissəsinin birinci bölümündə (. «Gömrük Birliyi» adlanır) gömrük həddlərinin yaxınlaşdırılması nəzərdən keçirilmişdir.

---

[1] Avrupa Ekonomik Topluluğu ile Türkiye Arasında Ortaklık İlişgisi Kurulmasına dair Anlaşma ve Katma Protokol. 23 kasım 1970. www. mfa.gov.tr.
[2] Esra Çayhan. Türkiye – AB ilişkileri. İstanbul, 1997. s.293.

Protokolda mərkəzi məsələlərdən biri onun II hissəsində ifadə olunmuşdur. Burada Ortaq Gömrük tariflərinin Türkiyə tərəfindən qəbuluna dair maddələr ( XVII – XX) özünə yer almışdır. Protokol Türkiyə – AB münasibətlərində kifayət qədər problemli sayılan bir məsələni də əhatə edirdi. Belə ki, onun III hissəsində fərdlərin (əsasən işçi qüvvəsinin) sərbəst hərəkəti ilə bağlı problemlər ətrafındakı müzakirələrdə irəli sürülən təkliflər ümumiləşdirilirdi.[1] Türk işçi qüvvəsinin AB-də hərəkəti uzun müddətdir ki, onun üzvü olan ayrı-ayrı dövlətlər tərəfindən əngəllənir. Bu bir sıra səbəblərdən irəli gəlir:

a) o dönəmlərdə Almaniyada işsizlərin 7-8% artırılması;

b) AB iqtisadiyyatında zəifləmənin baş verməsi;

c) AB-nin Avropada işçi qüvvə dəyərinin türklərin hücumuna məruz qalması qorxusu və s.

AB indiyədək Türkiyə işçi qüvvəsinin onun üzvü olan dövlətlərdə sərbəst hərəkəti ilə bağlı məsələlərlə razılaşmamışdır.

Qatılma Protokolu imzalandıqdan sonra ikitərəfli bəzi addımlar atıldı. Bunlara aşağıdakıları misal çəkmək olar:

a) Ankarada Genişlənmə müqaviləsi (Tamamlayıcı protokol) imzalandı (30. VI. 1973);[2]

b) Brüsseldə III Maliyyə protokolu razılaşdırıldı (12. V. 1977);[3]

ç) Türkiyə iə bağlı gömrük vergilərinin 1987-ci ilə qədər sıfıra endirilməsi qərara alındı (30. VI. 1980; 480 saylı) və s.[4]

Türkiyədəki hərbi çevriliş (12. IX. 1980) onun AB ilə də münasibətlərinə təsir göstərdi. Hətta AB onunla əlaqələri dondurmağı qərara aldı. (22. I. 1980). AB Şurasının toplantısında (18. IX. 1980) bu kimi məsələlərə diqqət yetirildi:

---

1 M.E. Birand. Türkiyenin Ortak Pazar Macerası 1959 – 1985. İstanbul, 1987. s.78.
2 Avrupa Birliği El kitabı. Ankara, 1995. s.91.
3 Yene orada. s.93.
4 U. Kılınç. Türkiye – Avrupa toplulukları ilişkileri 1983 – 1988. Ankara, 1990. s.150.

- Hərbi idarəçiliyə tezliklə son qoyulaçağına inam bildirilirdi;
- Demokratiya və insan haqlarına hörmətlə yanaşılmasının vacibliyi vurğulanırdı;
- Əlaqələrin davam etdirilməsi lazım bilinirdi.

Toplantının qərarı isə belə oldu: Türkiyəyə «vaxt krediti» verilsin və bir müddət gözlənilsin. Ancaq Avropa Parlamentinin (AP) daha kəskin ruhlu qərarları Qatılma protokolunu, bir növ, iflic hala saldı. AB Şurası da AP-nin təsiri ilə hərəkət etdi.

Lakin Türkiyənin yeni mülki hökuməti – Turqut Özal kabineti AB ilə əlaqələrin çanlandırılması sahəsində israrlı oldu. Yunanıstanın yaratdığı əngəllər üzündən ilk vaxtlarda ciddi irəliləyişə nail olunmadı. Sonrakı səylər sayəsində Türkiyə - AB Ortaq Şurası 1986-cı il sentyabrın 16-da Brüsseldə münasibətləri davam etdirməyə qərar verdi.[1]

Türkiyə Roma müqaviləsinin 237-ci, Avropa Kömür və Polad Birliyi Anlaşmasının (AKPB) 98-ci və EURATOM anlaşmasının 205-ci maddələrini əsas tutaraq 1987-ci il aprelin 14-də AB-yə tam üzvlüyə qəbul üçün müraciət etdi. Bununla bir çox araşdırmacı və diplomatların da qeyd etdikləri kimi, Türkiyə AB yolunda ikinçi böyük addımını atmış oldu. Bundan sonra qarşıda duran əsas vəzifələr sırasında 1982-ci ilin yanvarından toplanmayan Qatılma Protokolu komissiyasının işini bərpa etmək mühüm yer tuturdu. Və buna nail olundu. Bu quruma təkrar seckilər (17. XII. 1988) keçirildi və 1989-cu ilin yanvarından o fəaliyyətə başladı.[2]

## § 3. E. Raynın raportu və Avropa Birliyinin mülahizələri.

Türkiyənin AB-yə tam üzvlük üçün müraciəti onun müvafiq komissiyalarında araşdırıldı. AB həmin müraciətə rəsmən 1989-cu ilin

---

[1] F. Armaoğlu. XX yüzyıl siyasal tarihi. İstanbul, 1995. s. 319.
[2] G. Özcan. Türkiyede siyasal rejim ve dış politika 1983 – 1993. «Türkiye dış politikasının analizi». İstanbul, 1994. s.310.

oktyabrında cavab verdi. Türkiyə – AB münasibətləri tarixinə Rayn raportu kimi daxil olan bu sənəd bir cox cəhətlərdən diqqəti cəlb edir.[1] E. Rayn AB Komissiyası Türkiyə şöbəsinin müdiri idi. AB Komissiyası üçün hazırlanan bu dörd səhifəlik raport «Tərcüman» qəzeti (10 oktyabr 1989-cu il) tərəfindən əldə olunaraq yayınlanmışdı.

Bu raport – «AB-nin Türkiyənin müraçiəti ilə əlaqədar baxışı» rəsmən 1989-cu il dekabrın 18-də açıqlandı. Onun başlıca məqamlarını aşağıdakı kimi formulə etmək olar:

1. Türkiyə AB-yə üzv ola biləçək bir dövlətdir.
2. Bunu əngəlləyən bir sıra siyasi və iqtisadi əngəllər vardır.
3. 1993-cü ildən tez olmayaraq hec bir tam üzvlük məsələsinə baxıla bilməz.

Rayn raportunun bölümlərindən birində Türkiyə iqtisadiyyatı dəyərləndirilmişdi. Bu zaman həllini tapan məsələlər, həm də çözülməsi vacib olan problemlər göstərilirdi. Sonuncu problemlər sırasında isə bunlara xüsusi yer ayrılırdı:

a) sənaye və kənd təsərrüfatının inkişaf nisbətindəki bərabərsizlik;

b) makroiqtisadi tarazsızlıqlar və s.

Belə bir qənaət də açıqca bildirilirdi ki, bu kimi problemlərlə Türkiyə AB üçün bir yükə çevrilə bilər.

Raportda siyasi məsələlərə də yer ayrılmışdı. Burada hərbi çevrilişdən sonra demokratiyanın davam etdirilməsi və s. məqamlara əməl olunması vurğulanırdı. Eyni zamanda isə «insan haqları» və s. ilə bağlı məsələlər yenidən gündəmə gətirilirdi.

Raport Türkiyənin Yunanıstanla münasibətlərindəki problemləri də önə çəkirdi. «Kipr problemi» xüsusi olaraq nəzərdən keçirilirdi. Ümumiyyətlə isə raportun Türkiyə üçün müəyyənləşdirdiyi «problemləri» belə ifadə etmək mümkündür:

---

[1] The official report E. Rine. www.europe.eu

- Türkiyənin AB-yə üzvlüyü siyasi və maliyyə cəhətlərdən böyük bir yük olaçaqdır;
- Türk fəhlələrinin AB dövlətlərində sərbəst hərəkəti mümkün deyildir;
- Türkiyənin iqtisadi mənfəətləri, siyasi, mədəni və idarəcilik qaydaları 12-lərə tərs mütənasibdir;
- Türkiyə AB-yə qatılarsa 2000-ci ildə Birliyin hər beş üzvündən biri türk olacaqdır;
- Türkiyə bütün Avropa dövlətləri arasında millətcidir;
- Onun müsəlman ölkələri ilə yaxın əlaqələri vardır;
- Birlik üzvü olan dövlətlərin çoxu Türkiyəni AB üzvü kimi dərk edə bilmirlər;
- Türkiyə Avropanın siyasi və mədəni mirasının bir hissəsi deyildir.

Bütün bu kimi «problemlərə» baxmayaraq raport Türkiyənin AB-yə üzv olmasını qadağan etmirdi. Bu sənəddə AB-nin Türkiyənin Qərbə yönəlik siyasətini dəstəkləməsi və bu çərçivədə münasibətlərin davam etdirilməsi məsləhət bilinirdi. Raportda həm də aşağıdakı məsələlərin həllini tapması da qeyd olunurdu:

a) 1995-ci ilin sonunadək Gömrük birliyinin tamamlanması;

b) maliyyə və sənaye sahələrində işbirliyinin gücləndirilməsi;

c) elmi – texnoloji işbirliyi istiqamətində əlaqələrin genişləndirilməsi;

ç) siyasi və mədəni bağların möhkəmləndirilməsi.

Raport Türkiyənin üzvlüyə qəbulunu rədd etməsə də bu prosesi heç sürətləndirmədi .

Türkiyənin AB-yə üzv olmaq istəməsi və bu istiqamətdə başlamış fəaliyyətlər çox önəmli məsələ olmaqla bərabər Türkiyənin Qərblə bu günə kimi olan problemli əlaqələri unudulmamalıdır. Ölkələr arasında son məqamda «əbədi dostluqların» deyil, «qarşılıqlı məqsədlərin» olduğu qayda bu gün də ölkələrarası münasibətlərdə qırmızı xətt kimi keçməkdədir.

Münasibətlərdə məqsəd, qarşılıqlı fayda vacib bir faktordur. Əsas məsələdə budur ki, bu gün dost olan bir ölkə sabah düşmən, düşmən olan bir ölkə isə dost ola bilər. Bu şərtlər eynilə Türkiyə üçün də keçərlidir. Yəni bu gün Türkiyə AB-yə üzv olacaqsa, nəticədə Türkiyə qısa, orta və uzun müddətə nələri qazanıb, nələri itirəcəyini bilməlidir. Lakin bəzən elə olur ki, Türkiyə bu qaydalara əməl etmir, nə olursa olsun Avropa ilə bütünləşməyə çalışır. Ancaq Türkiyənin bu siyasəti ona baha başa gəlmiş və bu düşüncələrlə AB üzvü olsa belə itirməkdə davam edəcəkdir.

Bu münasibətlər Türkiyə ilə indi Avropa Birliyinə qarşı Türkiyə üçün alternativ kimi qələmə verilən Amerika Birləşmiş Ştatları ilə əlaqələrdə də özünü büruzə verməkdədir. Çünki Türkiyənin müttəfiqi olan ABŞ dövləti Şərq siyasətini məhz bu ölkə vasitəsilə həyata keçirsə də öz maraqlarını daima hər şeydən üstün tutmaqdadır. Lakin onu nəzərə almaq lazımdır ki, Türkiyənin AB-yə qəbul edilməməsinin bir səbəbl də onun ABŞ-la olan müttəfiqliyidir. Açıq görünməsə də, bildiyimiz kimi, Avropa ilə ABŞ arasında gizli rəqabətmövcuddur. Və Avropanın böyük dövlətlərinin çəkindiyi bu məqam ondan ibarətdir ki, Türkiyə AB-yə daxil olduqdan sonra ABŞ-ın buradakı mövqeyi daha da möhkəmlənəcək.

II FƏSİL

## Türkiyənin Avropa Birliyinə qəbulunu əngəlləyən «problemlər»

Türkiyə – AB münasibətlərinin qurulması məsələsi geniş aspektlidir. Onlara dair çoxlu dəyərləndirmələr vardır. Bu məsələdə AB üzvü olan dövlətlərdə fərqli yanaşmalar mövcüddür. Onların sırasında isə əsasən iki xətt görünməkdədir:

1. Birliyin üzvlərindən bəziləri Türkiyənin ona qatılmasında maraqlıdırlar və buna yönəlik səylər göstərirlər.
2. Digərləri isə müəyyən iqtisadi və siyasi mülahizələrə görə Türkiyənin AB-yə qəbulunu nəinki istəmirlər, hətta vaxtaşırı bu işi əngəlləyirlər.

Türkiyə daxilindəki siyasi qüvvələrin də AB-yə üzvlükdə birmənalı mövqeyi yoxdur. Z. Bjezinskinin təsnifatına əsasən Türkiyədəki siyasi qüvvələrin (modernistlər, islamçılar, millətçilər) strateji xətlərindəki fərqli məqsədlər bu sahəyə də öz təsirini göstərir.[1] Bir sıra ekspert və analitiklər Türkiyənin yüksək məqamlı hərbçilərinin də bu məsələdəki həlledici təsirini unutmamağı tövsiyə edirlər.

Milliyətçilərin siyasətdəki təmsilçisi olan Milliyyətçi Hərəkat Partiyasının rəsmi görüşlərdə buna qarşı olmadıqları haqqında bəyanatlarına baxmayaraq əslində onların AB-yə heç də isti baxmadıqları məlumdur. Bu partiyanın yaradıcısı Alparslan Türkeş vaxtilə deyirdi: «Biz AİB-nin tamamilə əleyhinəyik. AİB milli dəyərləri aradan qaldıracaq tamamilə Xristian bir qurum olduğuna görə ülkücülər ona qarşıdırlar». duyduqları» kimi bəyanatla da çıxış etmişdi.

---

[1] З. Бжезинский. «Великая шахматная доска». Москва, 1999. с.161.

Yuxarıda sadalanan siyasi qüvvələr sırasında modernistlər (ANAP, «Doğru Yol» və s. partiyalar) Qərbə inteqrasiyada – AB ilə sıx əlaqələrdə daha maraqlı və israrlı görünürlər. Türkiyənin tezliklə AB-yə üzv olmasını istəyənlərə görə AB 150 ildir qərbləşməyə cəhd göstərən Türkiyə üçün təkrarolunmaz tarixi bir fürsətdir. Bu dairələrə görə AB-nin Türkiyəyə qazandıracağı iqtisadi gəlirlər ikinci dərəcəlidir, əsas məsələ isə Avropa ilə olacaq siyasi bütünləşmədir. Türkiyə Birlik vasitəsilə Avropa ilə bütünləşəcək, beləliklə tam bir qərb formulu qazanmış olacaqdır. Məsələyə insan hüquqları, demokratiya baxışı ilə yanaşanlara görə Türkiyə istəsə də, istəməsə də iqtisadi və texnoloji inkişaf göstərən Qərb dövlətləri ilə bir sıra əlaqələr yaratmağa məcburdur. Lakin son dövrə aid proseslərin təhlili belə bir qənaətə gəlməyə imkan verir: AB ilə münasibətlərdə Türkiyədəki aparıcı siyasi qüvvələr və hərbçilər arasında bir uzlaşmaya əsasən nail olunmuşdur.

Türkiyənin AB-yə qəbulunu əngəlləyən başlıca məqamlar (amillər) Birlik ilə bağlıdır. Raynın raportundan və digər sənədlərdən də aydın görünür ki, AB Türkiyənin ona qəbulunu süni maneələrlə əngəlləməkdə davam edir. AB dövlətləri və onun əsas qurumları tərəfindən Türkiyə üçün yaradılan və ya bəhanə edilən «məsələlər - problemlər» bunlardır:

1. Yunanıstan – Türkiyə münasibətlərindəki vaxtaşırı özünü göstərən anlaşılmazlıqlar və «Kipr problemi».
2. «Erməni soyqırımı»nın Türkiyə tərəfindən tanınmasına dair çağırışlar, «məsləhətlər», tələblər.
3. «Türkiyədə insan hüquqları»na əməl olunması tələbləri (PKK terrorçuluğuna qarşı mübarizənin yanlış qiymətləndirilməsi və s.).[1]

---

[1] Başak Kale. Türkiyenin Avrupa serüveninde yeni sayfa: Katılım Ortaklığı Belgesi. «Stratejik analiz» jurnalı, №8, İstanbul, 2000. s.12.

## § 1. «Kipr problemi» - Türkiyənin AB-yə qəbulunu «əngəlləyən amillərdən» biri kimi.

Panellinizm, «Meqalo idea» və s. mövqelərində duran Yunanıstanın zaman-zaman Türkiyə üçün yaratdığı problemlər onun AB-yə qatılmasını əngəlləyən faktorlar sırasında mühümlərindən sayılır. Yaxın tarixi yaxşı bilənlər bəzi dövrlər Türkiyə ilə Yunanstan arasında isti münasibətlər olsa da onların arasında hər zaman bu və ya digər səbəblərdən problemlər yaşanacağını və bunların əbədi olaraq gündəmdən düşmək ehtimalının olmadığını gerçəkliyini də görə bilirlər. Bu o qədər aydın bir həqiqətdir ki, bəzilərinə görə Türkiyənin Avropa Birliyinə görmək istəməsinin ən önəmli məsələsi Yunanıstanın neytrallaşdırılması ilə bağlıdır. Bu səbəb şübhəli olsa da, Türkiyə ilə Yunanıstan arasında ciddi problemlərin olduğu, zaman – zaman sülh və dostluq havası əssə də bunun əbədi olmayacağı bir həqiqətdir. Bütün bunlardan əsası Türkiyə ilə Yunanıstanın ayrı – ayrı həqiqəti vardır: Türkiyə 150 ilə yaxındır Qərb sivilizasiyası içərisində yer almağa çalışsa da nəticədə müsəlman və Şərqə, İslam dünyasına aid bir ölkə; Yunanstan da xrisitian və bütünlüklə Qərbə aid olmasa da ona yaxın bir ölkədir. Türkiyə ən təbii və məsum haqlarını müdafiə etmək məqsədilə Yunanstanla bir müharibəyə girəcək olsa, Qərbi yanında görər, yoxsa qarşısında? Bu sual yetəri qədər cavabını almamışdır. Keçmişdə Sovet hədəsi ilə qarşılaşan Türkiyəyə əskər göndərməkdə istəksiz davranan Qərbin, Yunanstanla yaşanacaq ciddi bir ixtilafda Türkiyənin tərəfini tutacağı inandırıcı görünmür. Lakin bütün bunlara baxmayaraq, Türkiyə bu quruma can atmaqda davam edir. Hələ T. Özalın liberal iqtisadiyyat yönümlü daxili siyasəti beynəlxalq fəaliyyət sahəsində Yunanıstanla dialoq və yumşalma xətti əsas tutulurdu. Və hər nə qədər olsa da, açıq şəkildə dillərinə gətirməsələr də onlar tərəfindən AB əslində «Bir xristiyan qurum» kimi qəbul edilir. Onlar İslam ilə xristiyanlığın bir yerdə ola biləcəyini, yeni

və dünyəvi bir mədəniyyətin qurulmasında birlikdə çalışacaqlarını qəbul edə bilmirlər.

Lakin bu siyasət rəsmi Afinanın – Papandreu hökumətinin «Milli məsələlər» başlıqlı proqram sənədi ilə rədd edildi. T. Özal Türkiyə Böyük Millət Məclisində və hökumətin proqramı ilə bağlı çıxışında (19. XII.1983)[1] bir daha Yunanıstana «dostluq əli» uzadılması təklifini irəli sürdü. Ancaq bütün bunlara baxmayaraq yunan tərəfi əksinə hərbi qarşıdurma səylərinə baş vurdu: «Səmadirək hadisəsi» və «Limmi məsələsi» ortaya çıxdı, Egey böhranları yaşandı.

Yunanıstan həm də Türkiyənin AB-yə gəlişini özünün xarici siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Və bu zaman da «Kipr problemi»nə xüsusi önəm verildi. Türkiyənin AB ilə əlaqələrində mühüm yer alan Qatılma Ortaqlığı sənədi bu məsələ ilə əlaqədar məsələlərə yetərincə aydınlıq gətirdi. Həmin sənəddə qeyd edilirdi ki, «Kipr məsələsi»nin siyasi dialoq çərçivəsində həlli mümkündür və Türkiyə buna hər zaman razı və hazırdır. Türkiyə tərəfi həm də AB-nin də müvafiq səylərdə bulunmasını istəmişdi.

Türkiyə Xarici İşlər nazirliyinin açıqlamalarından birində deyilirdi: Türkiyə onun AB-yə qəbulunun «Kipr problemi» ilə hər hansı bir şəkildə bağlanmasına əsla razı ola bilməz. Türkiyə diplomatiyasına görə, «Kipr məsələsi» adanın yunan və türk icmalarının, onların qurumlarının problemidir. Göründüyü kimi, Türkiyə:

- «Kipr problemi»nin adadakı içmalar arasında və beynəlxalq qurumların vasitəçiliyi ilə həllinə əks getmir;
- bu məsələnin onun AB-yə qəbulu ilə əlaqələndirilməsini beynəlxalq hüquqa zidd mövqe kimi dəyərləndirir.

Türkiyə XİN-in bu mövqeyi hökumətin açıqlamasında da (9.XI.2000) özünə yer almışdı. Orada yazılırdı ki, «Türkiyə Kipr problemi ilə AB

[1] Gencer Özcan. Türkiyede siyasal rejim ve dış politika 1983-1993. «Türkiye dış politikasının analizi». İstanbul, 1994. s. 297.

üzvlüyünə namizədliyi həmişə bir-birindən ayrı tutur».[1] Yeri gəlmişkən, AB Şurasının Helsinki Zirvə toplantısında da (XII. 1999) BMT Baş Katibinin iştirakı ilə «Kipr məsələsi»nin həllinə dair danışıqlar müsbət qarşılanmışdı. Helsinkidə çıxarılan qərarın 9(b) maddəsində deyilirdi ki, AB Şurası problemin siyasi həllinin Kiprin Birliyə qatılmasını asanlaşdıracağını bildirirdi.[2] Türkiyə onun da üzvlüyü üçün «Kipr problemi»nin maneə olmamasını istəyirdi.

AB-nin «Kipr məsələsi»ndəki davranışı və mövqeyi Türkiyə tərəfindən həm də bir təzyiq və bazarlıq vasitəsi kimi də qiymətləndirilir. Nəticə olaraq isə AB-nin bu məsələdə daha obyektiv olması və çağdaş reallıqları mütləq nəzərə alması vacibdir.

## § 2. Türkiyənin AB-yə qəbulu və «erməni soyqırımı» təbliğatı.

Türkiyənin AB-yə qəbulu yolundakı süni əngəllərdən biri də «erməni soyqırımı» təbliğatıdır. Ermənilər 1973 – 1985-ci illərdə müxtəlif ölkələrdə ASALA, ARA, JCAK[3] və s. kimi terrorçu təşkilatları ilə türk diplomatlarına qarşı çoxlu terror olayları törətdilər. Onlar eyni zamanda ayrı-ayrı dövlətlərin siyasi qurumları (parlamentlər və s.), habelə beynəlxalq təşkilatlar vasitəsilə olmayan «erməni soyqırımı»nın tanınmasına çalışırlar.

Hədəf olaraq seçilən beynəlxalq qurumlar sırasında AB mühüm yer tutur. AB üzvü olan bəzi dövlətlərin təəssübkeşliyini və Türkiyənin ona qatılmağa dair israrlı səylərini görən ermənilər bunlardan yararlanmağa çalışırlar. Erməni lobbisi bütün gücü ilə Türkiyənin AB-yə yolunu birdəfəlik

---

[1] Turkey and the European Union. Ankara, 2001. s. 48.
[2] 10-11 Aralık 1999 Helsinki Zirvesi Başkanlık Sonuc Belgesi Madde 9(b), http://www.eureptr.org.tr/ kriterilcr.html.
[3] Gencer Özcan. Türkiyede siyasal rejim ve dış politika 1983-1993. «Türkiye dış poltikasının analizi». İstanbul,1994. sah.299.

bağlamağa çalışır və bu istiqamətdə AB-dən, onun əsas qurumlarından olan Avropa Parlamentindən (AP) istifadə edir.

Məhz bu kimi hərəkət və səylərin sayəsində Avropa Parlamenti 1986 – 1987-ci və 2002-ci illərdə «erməni soyqırımı» məsələsini müzakirə edib müvafiq qərarlar çıxardı. Bununla həm də Türkiyənin AB-yə qəbulu bir daha əngəllənmiş oldu. AP üzvü Vandemel Brukun 1986-cı ildə hazırlayıb onun siyasi komissiyasına təqdim etdiyi bir məruzə maraq doğurur. Məruzədə AP-də «erməni soyqırımı» məsələsinin geniş müzakirəsinin aparılması vacib sayılır.

Bu kimi lobbiçilik səylərinə baxmayaraq AP-nin Siyasi Komissiyası 1986-cı il iyunun 26-da həmin məruzəni rədd etdi. Ancaq sonrakı təsirlər vasitəsi ilə məsələ AP-nin sessiyasına çıxarıldı. Müzakirələrin nəticələri maraqlı və ziddiyyətli oldu. Belə ki, 1987-ci il iyunun 18-də keçirilən toplantıda onun üzvlərindən 3/4-ü səsvermədə iştirak etmədi. Bunu müzakirə edilən məsələnin onlara aid olmaması ilə izah etdilər. Ancaq 518 üzvdən 68-i lehinə və 60-ı əleyhinə olmaqla erməni lobbisinin qətnaməsi qəbul olundu. [1]

Qətnamədə ikili standarta da yol verilmişdi. Belə ki, burada 1973 – 1985-ci illərdə törədilən erməni terror hərəkətləri pislənilmişdi. Qətnamə həm də Türkiyə hökumətinə ermənilərin təmsilçiləri ilə dialoqa girməyi «məsləhət bilmişdi».

AP-nin bu qətnaməsinə onun üzvü olan dövlətlərin yanaşması da müxtəlif idi. Məsələn, Fransa hökumətinin mövqeyinə nəzər salaq. Bu dövlətin Xariçi İşlər naziri Türkiyə televiziyasına müsahibəsində (3.VII. 1987) əslində, bir növ, 18 iyun səsvermәsindən imtina etmişdi. O demişdi ki, Fransa indiki Türkiyə hökumətini 70 il əvvəlki hadisələrə görə günahlandıra bilməz. Göründüyü kimi, burada yenə məsələyə ikibaşlı yanaşma var. Yəni 70 il əvvəlki hadisələrin əsl mahiyyəti açıqlanmır. Digər

---

[1] Z.Səfəroğlu. Avropa Parlamentindən Türkiyə əleyhinə qərarlar. «Yeni Müsavat» qəzeti.1 mart 2002-ci il.

tərəfdən isə az öncə Fransa Milli Assambleyasında cıxış edən (22. IV. 1987)[1] Xarici İşlər naziri 1915-ci il hadisələrini ermənilərin qurban olduqları və indi genosid adlandırdıqları facıə kimi səciyyələndirmişdi.

Avropa Birliyi və Parlamentinin Türkiyənin AB-yə qəbulunu «erməni soyqırımı» ilə bağlamaq cəhdləri davam etdirilməkdədir. Bunu təsdiqləyən lap son faktlardan birini nəzərdən keçirməklə də kifayətlənmək olar. Avropa Parlamentinin Brüsseldə kecirilən toplantısında (28. II. 2002.)[2] Cənubi Qafqaza dair sənəd qəbul edilmişdir. Sənədin qərar hissəsində:

- Türkiyənin «Avropa ilə bütünləşməsi arzusuna uyğyn addımlar atması» istənilirdi;
- burada həm də AP-nin «erməni soyqırımı»na dair 1987-ci il 18 iyun tarixli qərarının Türkiyə tərəfindən tanınması lazım bilinirdi.

AP-də bu dəfəki müzakirələr də birmənalı olmadı. İngilis parlamentarisinin yuxarıda qeyd edilənləri dəyişdirməyə dair təklifi keçmədi. Erməni lobbisinin səyləri sayəsində parlamentarilərin əksəriyyəti qətnamənin lehinə səs verdi. P. Qartonun hazırladığı bu sənəddə Türkiyənin AB-yə qatılmaq istəməsindən və onun üzvlüyə namizədliyindən istifadə edilməsini, bu məqsədlə də rəsmi Ankaraya təzyiq göstərilməsini qeyd etmişdi.[3] Yeri gəlmişkən, AP üzvü olan fransız deputatlardan biri də (F. Morillon) Türkiyə ilə bağlı hazırladığı raporta olmayan «erməni soyqırımı» iddialarını daxil etmişdi.

AP-nin bu kimi haqsızlıqları Türkiyə tərəfindən cavabsız qala bilməzdi. Türkiyə hökumətində AB ilə əlaqələr məsul olan, Baş nazirin müavini Məsud Yılmaz AP-nin bu son qərarlarının ölkəsi üçün elə bir önəm daşımadığını bildirdi.[4] Onun fikrincə:

---

[1] Rıdvan Karluk. Avrupa Birliği ve Türkiye. İstanbul, 1998. sah 366.
[2] Türkiye – AB ilişğilerinde son durum. 2002. http://www.mfa.gov.tr/turkce/grupa/ab/abab/ab.org.htm
[3] Yene orada.
[4] «Hürriyet» qəzeti. 2 mart 2002-ci il.

- AP Türkiyənin təmsil olunmadığı və mövqeyinin dilə gətirilmədiyi bir forumdur;
- bu cür qərarlar AB ilə münasibətlərimizin daha da inkişafı və üzvlük mərhələsinin sona çatdırmağımızın önəmini təsdiqləyir.

AP-nin bu son mövqeyi (qərarları) analitiklər və diplomatlar tərəfindən müxtəlif amillərlə şərtləndirilir. Onların nöqteyi-nəzərincə bu:

1. Türkiyənin AB-yə qəbulunu çətinləşdirmək və ondan xeyli güzəştlər qoparmaq niyyətlərindən irəli gəlir.
2. Son vaxtlar Türkiyə ilə ABŞ arasında qüvvətlənən yaxınlaşmanın AB üzvü olan bəzi dövlətlərdə yaratdığı narahatlıqlardan doğur.

## § 3. Türkiyənin AB-yə qəbulunu əngəlləyən «insan haqları məsələsi».

Türkiyənin AB yolundakı maneələr zaman-zaman yeniləşdirilmişdir. «Kipr problemi» və «erməni soyqırımı» ilə yanaşı vaxtaşırı «Türkiyədə insan hüquqları məsələsi» də gündəmə gətirilir. «İnsan hüquqları məsələsi»ndə isə hədəfə alınan əsas məqamlar PKK terrorizmi ilə aparılan haqlı mübarizəyə yanlış yanaşma və bundan da Türkiyənin AB-yə qəbulunu əngəlləməkdir.

Türkiyə uzun illərdən bəridir ki, ölkədə müəyyən problemlərin olduğunu etiraf etməklə yanaşı AB-nin ümumi prinsipləri və beynəlxalq hüquqa əsasən onların həllinə çalışır. Və o həm də haqlı olaraq insan hüquqları ilə bağlı ona yönələn ittihamları rədd edir. Türkiyə Qatılma Ortaqlıq Sənədində aşağıdakı məsələləri önə çəkməklə AB-nin əsassız iddialarını dəf edərək ona doğru getməkdə israrlı olduğunu təsdiqləyir:

- bütün insan hüquqlarının gözlənilməsi ilə əlaqədar lazımi təshih imkanlarının gücləndirilməsi;
- söz azadlığı ilə bağlı hüquqi və konstitutsiya təminattlarının qüvvətləndirilməsi;

- dinç yığınçaqlar keçirilməsi və dərnəklər yaratma sərbəstliyinə aid qanuni qarantların artırılması;
- Avropa İşkəncə Razılaşmasına riayət edilməsi;
- məmurların insan hüquqları sahəsindəki məlumatlandırılmasının (maarifləndirilməsinin) gücləndirilməsi;
- Dövlət Təhlükəsizlik Məhkəmələri də daxil olmaqla məhkəmə proseslərinin işgüzarlığının beynəlxalq standartlara uyğun şəkildə inkişafı.[1]

Türkiyənin bu kimi məsələlərin daha da təkmilləşdirilməsinə yönəlik sistemli və ardıçıl səyləri AB Komissiyasının qurumun genişlənməsi üzrə məsul şəxsi G. Verhengenin açıqlamalarında da ifadə olunmuşdu.[2] Onun qənaətincə, Türkiyə demokratik və hüquq dövləti olaraq lazım olan ciddi dəyişiklikləri gerçəkləşdirəcəkdir.

AB-nin Türkiyə üçün nəzərdə tutduğu şərtlərdən biri də budur: Türkiyə televiziya və radio verilişlərində vətəndaşların ana dillərindən istifadəsini qadağan edən hallar varsa onların aradan qaldırılması. Burada əsasən kürd dilində verilişlər nəzərdə tutulur. Türkiyə parlamenti son zamanlarda apardığı müzakirələrdə bu kimi məsələlərin həllinə yönəlik tədbirlərin görüldüyünü vurğulamışdır.

AB-nin «Türkiyədə insan hüquqları»na dair qaldırdığı məsələlər sırasında ölkənin Cənub-Şərq bölgələrinin durumu da diqqəti çəkir. Birlik həmin bölgələrdə iqtisadi-mədəni həyat sahələrində özünü göstərən bəzi çətinlikləri qabardır. Qatılma Ortaqlıq Sənədində də qeyd edildiyi kimi, belə problemlər dünyanın əksər dövlətlərində mövcuddur. Və Türkiyə dövləti onların aradan qaldırılması məqsədi ilə müəyyən layihə və proqramlar üzərində işləyir.

---

[1] Katılım Ortaklığı Belgesi, AB Komisyonu, 8.11.2000. http://www.mfa.gov.tr/turkce/grupa/ab/abab/ab.org.htm
[2] Ali Bulaç. Avrupa Birliği ve Türkiye. İstanbul, 2001.sah.156.

«İnsan hüquqları» ilə əlaqədar məsələlər edam cəzasını da əhatə edir. Türkiyənin AB üçün Qatılma Ortaqlıq Sənədinin bir maddəsinə görə, edam cəzası ilə bağlı məqamlar nəzərdən keçirilir. Türkiyənin hüquq qurumları və Xarici İşlər nazirliyinin mövqelərindən bu da aydınlaşır ki, Avropa İnsan Hüquqları Razılaşmasının 6-cı Protokolunun imzalanması ilə bir çox məsələlər həllini tapacaqdır.[1]

Türkiyə üçün söylənilən əsas iddialardan biri də PKK ilə bağlı tutulan mövqedir. Bu zaman habelə Türkiyədə fəaliyyət göstərən kürd partiyası HADEP (Xalq Demokrat Partiyası) ilə əlaqədar məqamlar da önə çıxarıldı. PKK-nın terrorçu təşkilat olması və Türkiyə dövlətçiliyinə, onun ərazi bütövlüyünə qarşı çıxması yetərincə sübuta yetirilən və beynəlxalq dairələrdə təsdiqlənən məsələdir. Bunu aşağıdakı məqamlar da isbatlayır:

1. PKK-nın proqramında Türkiyə ərazilərini də əhatə edən kürd dövlətinin yaradılması məsələsinin qaldırılması.
2. Onun ermənilərin terrorçu ASALA və s. təşkilatları ilə sıx əlaqələrə malik olması.
3. VİETKOM modeli və strateji müdafiə, tarazlıq və hücum taktikasına əsasən Türkiyə dövlətciliyinə xələl gətirilməsi.
4. PKK-nın III konqresinin (Helvi – X. 1986) qərarına əsasən Türkiyə dövlət idarələrində sabotajların təşkil edilməsi.
5. V qurultayın (I. 1995) qərarı ilə Türkiyə də daxil olmaqla region dövlətlərində hərbi düşərgələr yaradılması.
6. PKK-nın 1995-ci ilədək Türkiyədə 17.000 terror hadisəsi törətməsi, 4.748 türk əsgərinin, dinc əhalidən 4.332 (500-dən cox uşaq, 512 qadın və s.) öldürülməsi. Ümumiyyətlə isə Türkiyə PKK terroru üzündən 30.000 çox insan itkisi vermişdir.

---

[1] Turkey and the European Union. Ankara.2001. s.67.

7. Bütün bu zorakılıq və vəhşiliklərə isə Abdulla Öcalan (Apo) başçılıq etmişdir.[1]

Avropa Birliyi PKK-nın Türkiyədəki bu və ya digər hərəkətləri barədə vaxtaşırı və kifayət qədər məlumatlandırılsa da yanlış mövqedə durmaqdadır. Bunu Avropa Parlamentinin, barəsində yuxarıda bəhs etdiyimiz, toplantısının (28. II. 2002) digər bir sənədi də təsdiqləyir. «Türkiyədə insan hüquqları» adlı bu qərar (sənəd):

- HADEP-in kürdlərin mədəni hüquqları uğrunda mübarizə apardığını və PKK ilə əlaqələrə malik olmadığını vurğulayır;
- partiyanın separatizmə dəstək verməsini inkar edir və onun bağlanma təhlükəsi ilə üzləşdiyini göstərir;
- HADEP ilə əlaqədar istintaqın dayandırılması istənilir.

Türkiyə - AB münasibətləri və PKK mövzusu ilə əlaqədar məsələlərdən biri də Qərbin nüfuzlu siyasi qurumları, dövlət adamları və s. tərəfindən son vaxtlar edilən çoxsaylı etiraflardır. Bunları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a) ABŞ-ın sabiq müdafiə naziri U. Koen bildirmişdir ki, onun dövləti Türkiyəni uzun müddət ərzində PKK terrorcu təşkilatı ilə təkbətək qoymaqda səhvə yol vermişdir;

b) ABŞ hökuməti 11 sentyabr terror hadisələrindən sonra terrorçu təşkilatlarla bağlı tərtib etdiyi siyahıya PKK-nı da daxil etmişdir;

ç) ən önəmlisi isə budur ki, Avropa Birliyinin özü də artıq PKK-nı terrorcu təşkilat kimi tanımağa başlamışdır. AB komissiyasının hazırladığı xüsusi sənəddə və Nyu-York məhkəməsinə təqdim olunan raportda PKK barədə «kürd terrorçu təşkilatı» deyə bəhs olunur;

c) Türkiyənin AB-yə qəbulunu uzun müddət əngəlləyən və bu işdə «PKK vəkili» kimi çıxış edən Yunanıstan hökuməti (Xarici İşlər naziri Y. Papandreunun timsalında) onu terrorçu təşkilat olaraq etiraf etmişdir.[1]

---

[1] Başak Kale. Türkiyenin Avrupa serüveninde yeni sayfa: Katılım Ortaklığı Belgesi. «Stratejik analiz» jurnalı, №8, s.14. İstanbul, 2000.

Bu da qeyd olunmalıdır ki, 2002-ci ilin mart ayından etibarən PKK manevr edərək adını dəyişdirməyə çalışır. Və bu onun terrorçu mahiyyətini hec də dəyişmir. Türkiyə isə onun AB-yə qəbulunun PKK ilə əlaqədar hər hansı bir şəkildə bağlanılmasını rədd edir. Belə süni maneələrə birdəfəlik son verilməsini istəyir.

Yuxarıdakı qısa təhlildən də göründüyü kimi, Türkiyənin AB-yə yolu qarşısına çıxarılan bütün «problemlər - əngəllər» əsassızdır. Türkiyə bu, məqsədli maneələri səbrlə aradan qaldırmaqla AB-yə qəbulda ardıcıl və israrlıdır.

---

[1] Türkiye – AB ilişğilerinde son durum. 2002. http:// www.mfa.gov.tr/turkce/grupa/ab/abab/ab.org.htm

# III FƏSİL

## Türkiyə – Avropa Birliyi münasibətlərinin perspektivləri

Türkiyə ilə AB arasındakı əlaqələr 40 ildən artıq bir dövrü əhatə edir. Bu müddətdə Türkiyənin iqtisadi inkişafının Avropa standartlarına yaxınlaşdırılması, gömrük və s. sahələrdəki təbii problemlərin həlli kimi məsələlərə önəm verilmişdir. Habelə Türkiyənin AB-yə qatılmaq yolunu əngəlləyən süni problemlərin dəf olunması da diqqət mərkəzində olmuşdur.

AB – Türkiyə münasibətlərinin gələcəyinə dair baxışlar çoxsaylılığı ilə yanaşı həm də rəngarəngliyi ilə səciyyələnir. Türkiyənin bu qurumla əlaqələrinin perspektivləri məsələləri AB-nin son vaxtlardakı zirvə toplantılarında da nəzərdən kecirilmişdir. Yəni ki, AB Avropa Şurasının Kopenhagen (1993), Lüksemburq (1997), Kardif (1998), Vyana (1998), Köln (1998), Helsinki (1999), Nitsa (2000), Göteburq (2001) və Laeken (2001) toplantılarında Türkiyənin AB-yə qəbulu ilə bağlı bir çox önəmli məsələlər araşdırıldı.

### § 1. Avropa Birliyinin genişlənməsi məsələsi və Türkiyənin mövqeyi.

Türkiyə AB-yə tam üzvlük tələbi ilə müraciət etdikdən sonra onun Birliklə əlaqələri sahəsində müəyyən işlər görüldü. Belə ki, iqtisadi və ticarət problemlərinin həlli məqsədi ilə yaradılan Ad-Hoc Komitəsinin

toplantısı kecirildi (7. XI.1988).[1] Türkiyə – AB Ortaq Şurası 1986-cı ildən bəri ilk dəfə olaraq toplandı (30. IX. 1991).[2]

Gömrük Birliyinin fəaliyyəti ilə bağlı Türkiyə AB dövlətləri ilə inteqrasiya istiqamətində cox mühüm bir mərhələni qət etdi. Türkiyə iqtisadiyyatı və sənayesi Gömrük Birliyini tamamlayaraq tam üzvlüyə lazım olan xeyli işlər gördü.

XX əsrin 90-cı illərinin əvvəllərində AB Sovetlər Birliyi və sosializm sisteminin dağılması ilə əlaqədar yaranan yeni siyasi-tarixi şəraiti nəzərə alası oldu. AB üzvlərinin artırılması, yəni Birliyin genişləndirilməsi məsələlərini gündəmə gətirdi. AB-nin Kopenhagendə kecirilən Zirvə toplantısında (1993) genişlənmənin yolları və mərhələlərini müzakirə etdi. Öncə dağılan Varşava Müqaviləsi Təşkilatının keçmiş üzvləri olan Mərkəzi və Avropa dövlətlərini əhatə edən bir genişlənmə dövrü müəyənləşdirildi.

AB Komissiyasının genişlənməyə dair strateji xəttinə əsas kimi hazırladığı təkliflər 1997-ci il iyulun 16-da «Gündəm - 2000» başlıqlı bir raportda açıqlandı.[3] Raportda Mərkəzi və Şərqi Avropa dövətlərinin, habelə Güney Kiprin yunan hissəsinin də 2000-ci illərdə AB-yə tam üzvlüyə qəbulu da nəzərdə tutulmuşdu.[4] İki mərhələdən ibarət olan bu prosesdə bir sıra məsələlərin həyata keçirilməsi planlaşdırılırdı.

Birinci mərhələdə Kopenhagen meyarları (kriteriyaları) – demokratiya, insan hüquqları, iqtisadi inkişaf və s. – baxımdan öndə gedən Polşa, Macarıstan, Çexiya, Sloveniya və Estoniyanın AB-yə qəbulu qərara alınmışdı. İkinçi dönəmdə isə Slovakiya, Litva, Latviya, Bolqarıstan və Rumıniyanın Birliyə qəbulu həyata keçiriləcəkdir.

---

1 Leonard A. Stone. Turkish Foreign Policy: Four Pillars. «Perceptions» . June –August. 2001. s.14.
2 Yene orada. s.16.
3 Avrupa Birliği ve Türkiye. Ankara, 1999. s.352.
4 Cyprus 2000: Regular Report, EU Comission. 8.11.2000.

Göründüyü kimi, Türkiyənin AB-yə qəbulu yenə də «unudulurdu». «Gündəm - 2000» raportunda, bir tərəfdən, Türkiyənin Gömrük Birliyinin tələblərinə uyğyn çalışdığı, onun AB ilə əlaqələrinin inkişafı üçün sağlam bir əsasın olduğu qeyd edilirdi. Digər tərəfdən isə, raportda:

a) siyasi durumdakı «problemlər»;

b) maliyyə işbirliyi ilə siyasi dialoqun lazımi səviyyədə olmaması;

c) Gömrük Birliyi ilə bağlı «məsələlər»;

ç) Türkiyə makroiqtisadi göstəricilərinin yetərsizliyi və s. də vurğulanırdı.

Siyasi durumla bağlı yenə də insan hüquqları və Cənub-Şərqi Anadolu «problemi» təkrarlanmışdı. Habelə onların həlli istənilmişdi.

«Gündəm - 2000» raportunun açıqlanması prosesini izləyən Türkiyə diplomatiyası AB üzvü olan dövlətlər və onun Komissiyası səviyyəsində sıx ikili təmasları gerçəkləşdirdi. Türkiyə, AB Komissiyasının, onu Birliyin hazırkı genişlənmə müddətindən kənarda saxlayan raportunda («Gündəm - 2000») ifadə olunan təklifləri (mövqeni) əsassız saydı.[1] Rəsmi Ankara həm də qarşıdakı Lüksemburq Zirvə Toplantısından gözlədiklərini aşağıdakı şəkildə ortaya qoydu:

1. Türkiyənin AB-nin genişlənmə dönəminə daxil olmasının rəsmən elan edilməsi.
2. Türkiyənin bir müvafiq qatılma öncəsi stratejilə dəstəklənməsi.
3. Türkiyənin Avropa Daimi Konfransına digər namizədlərlə bərabər şəkildə qatılması.

Türkiyə – AB münasibətləri Birliyin Lüksemburqda keçirilən Zirvə Toplantısında ( XII. 1997) da gündəmə gəldi.[2] Onun Yekun Təlimatının

---

[1] Foreign policy of Turkey. Ankara, 2001. s.13.

[2] «Ayna» qəzeti. 15 dekabr, 1997-ci il.

ən mühüm bölümlərindən biri genişlənmə məqsədinə aid idi. Bu Təlimatda komissiyanın «Gündəm - 2000» raportundakı məqamlar da əhatə olunmuşdu.

Lüksemburq Zirvə Toplantısının nəticələrinə gəldikdə isə bunları qeyd etmək olar:

- Türkiyənin AB-yə tam üzvlüyə layiqliliyi bir daha vurğulanırdı;
- Türkiyənin Ankara müqaviləsinin yerinə yetirilməsi, Gömrük Birliyinin qüvvətləndirilməsi, Kopenhagen meyarlarının və AB-nin 1997-ci il 29 aprel tarixli Bəyannaməsinin müddəalarının reallaşdırılması sahəsindəki fəaliyyəti təqdir olunurdu;
- Bunlarla yanaşı Türkiyədə iqtisadi və siyasi reformaların davam etdirilməsi, Yunanıstan ilə yaxşı münasibətlər qurulması və «Kipr problemi»nin həlli məqsədi və BMT-dəki müzakirələrin dəstəklənməsi istənilirdi.[1]

Türkiyə hökuməti Zirvə Toplantısı qurtardıqdan sonra dərhal sonra bir açıqlama verdi. Burada AB-nin Türkiyəyə qərəzli münasibəti qınandı. Eyni zamanda onun AB-yə tam üzvlüyə qəbula israrlı olduğu təkrarlandı. AB ilə əlaqələrin davam etdiriləcəyi bildirilsə də Birliyin məsələyə dair mövqeyində ciddi dəyişikliklərin zəruriliyi diqqətə yetirildi.

Türkiyə tərəfi həm də bunu da Birlik rəhbərliyinin nəzərinə çatdırdı. Onun AB ilə siyasi dialoqunun bundan sonra, münasibətlərin inkişafına əngəl olduğu qeyd edilən, Türkiyədaxili məsələləri:

- «Kipr problemi»;
- Türk – yunan ilişgiləri;
- İnsan hüquqları və s. əhatə etməyəcəyi bildirildi.

---

[1] A. Bulaç. Avrupa Birliği ve Türkiye. Ankara, 2001. s. 312.

Rəsmi Ankara:

1. Avropa Konfransının ilk toplantısına da ( London, 12.III.1998) qatılmayacağını açıqladı.

2. Gömrük Birliyinin Ortaqlıq müqaviləsində nəzərdə tutulduğu kimi davam etdirilməyəcəyini təkrarladı.

3. AB – Türkiyə əlaqələrinin indiki durumundan çıxış yolunun Birliyi ortaya qoyacağı siyasi iradə ilə bağlı olacağını təsdiqlədi.[1]

Türkiyənin AB ilə əlaqələri Lüksemburq müzakirələrindən sonrakı dönəmdə rəsmi Ankaranın bu açıqlamasına əsasən aparıldı. AB Komissiyası «Gündəm - 2000» raportuna və Lüksemburq Zirvə Toplantısının qərarlarına əsasən «Türkiyə üçün Avropa Stratejisini həyata keçirməyə yönəlik Başlanğıc Təklifləri» deyilən bir sənəd ( «European Strategy for Turkey») hazırladı və 1998-ci il martın 4-də elan etdi.[2] Strateji adlanan sənəd əhatə etdiyi məsələlərə və digər səbəblərə görə diqqəti çəkir. Və, fikrimizcə, onun bir qədər ətraflı təhlili faydalı olardı.

Sənəd üç hissədən («Giriş»; «Təkliflər»; «Nəticə») ibarətdir. «Giriş»də Türkiyənin AB üzvlüyünə layiq olduğu bildirilirdi. Burada habelə Avropa Şurasının Türkiyəni hər sahədə AB-yə yaxınlaşdırdığı göstərilirdi. Lakin onu AB-yə qatılmaya hazırlayacaq bir stratejinin hazırlanmasının da çox önəmli olması vurğulanırdı. Bu strateji aşağıdakı məsələləri əhatə edirdi:

- Ankara müqaviləsi ilə (1963) nəzərdə tutulanların inkişaf etdirilməsi;
- Gömrük Birliyinin dərinləşdirilməsi;
- Maliyyə işbirliyinin həyata keçirilməsi;

---

[1] Foreign policy of Turkey. Ankara, 1999. c.25.

[2] Turkey and the European Union. Ankara, 2001.s. 67.

- Türkiyənin bəzi Avropa qurumlarına, habelə Avropa Konfransına qatılması, onun və AB-yə üzv dövlətlərin ortaq xeyrinə olacaq sahələrdə dialoqun və işbirliyinin daha da genişləndirilməsi üçün nəzərdə tutulanları qəbul etməsi. Bu halda Türkiyə AB-nin genişlənmə dönəminə indidən qatılmış olacaqdır.

Komissiya bu raporta Gömrük Birliyinin konsolidasiyası və digər sahələrdə işbirliyinin sürətləndirilməsinə yönəlik bir iş proqramını da daxil etmişdi. Təkliflərin bəzilərinin 1998-ci ilin birinci yarısında həyata keçirilməsinə başlanılacaqdı.

Təkliflərin gerçəkləşdirilməsi Türkiyəyə ayrılan maliyyə qaynaqlarına, ələlxüsus da onun üçün Özəl fəaliyyət yardımlarının (375 milyon ekyü) göstərilməsinə bağlı idi.[1] Sənəddə Türkiyənin Avropa – Aralıq dənizi Ortaqlığına üzvlüyü də ayrıca qeyd olunmuşdu.

«Strateji» sənədinin II bölümündə təkliflər ifadə olunmuşdu. Bunlar, əsasən, aşağıdakı (14) sahələri əhatə edirdi:

- sənaye sahəsində işbirliyi və kapital qoyuluşu;
- kənd təsərrüfatı;
- Gömrük Birliyinin əhatə dairəsinin genişlənməsi;
- xidmətlər;
- ortaq ticarət siyasəti;
- makroiqtisadi dialoq;
- telekommunikasiya və məlumat toplanması;
- rabitə sahəsində işbirliyi;
- insan hüquqları və s.

---

[1] Türkiye – AB Mali işbirliği. 2001 – temmuz. . http://www.mfa.gov.tr/turkce/grupa/ab/abab/ab.org.htm

Sənaye, kənd təsərrüfatı sahələrində işbirliyi və kapital qoyuluşu məsələləri əhatə edirdi:

1. Özəl bölmənin inkişafına yardım.
2. Texnoloji transfer.
3. Türkiyənin kənd təsərrüfatında dəyişikliklərin həyata keçirilməsi.
4. Türkiyənin kənd təsərrüfatına maliyyə dəstəyi.

Rabitə – enerji işbirliyi sahəsində əlaqələr:

a) Rabitə nazirlərinin III Pan – Avropa konfransında (VI.1997) çıxarılan qərarlara müvafiq olaraq Türkiyənin bu sahələrdəki işbirliyinə daha yaxından qatılması;

b) enerji sahəsində kapital qoyuluşunun artırılması.

İnsan hüquqları sahəsində başlıca istiqamətlər bunlardır:

- qadınların statusu;
- uşaq hüquqları və onların müdafiəsi;
- informasiya, təhsil və təlim

«Strateji» Sənədinin sonunda irəli sürülən təkliflərin AB-nin Türkiyənin ona qatılmasına hazırlanması üçün öhdəlikləri olduğu da göstərilirdi.

## § 2. Avropa Birliyinin Kardif, Vyana, Köln Zirvə toplantıları və Türkiyə.

AB üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantılarından biri də Kardifdə keçirildi (15-16. VI. 1998). Toplantıdakı müzakirələrdən sonra qəbul edilən Yekun sənədində genişlənmə ilə bağlı bölüm də vardı. Və, burada Türkiyə ilə əlaqədar bir sıra məqamlara yer verilmişdi. Türkiyənin AB-yə «üzvlük üçün layiq» olmasına dair əvvəlki

ifadə (mövqe) bu sənəddə «üzvlüyə namizəd» anlamına gətirilmişdi.[1] Bu zaman namizədlərin tam üzvlüyə hazırlanma durumunun incələnməsini və AB Komissiyasının hər namizəd üçün 1998-ci ilin sonunda bir raport təqdim etməsini nəzərdə tutan dönəmin nəzərdən keçirilməsi mexanizminə Türkiyə də daxil edilmişdi.

Türkiyə ilə bağlı hazırlanacaq raportun Ankara müqaviləsinin tam üzvlüyü nəzərdə tutan 28-ci maddəsinə və Lüksemburq Zirvəsinin qərarlarına əsaslanılması lazım bilinirdi. Kardif Zirvə Toplantısı, Türkiyəni tam üzvlüyə hazırlamaq üçün təqdim edilən, «Avropa Stratejisi»ni də təsdiqlədi. Habelə bu stratejinin Türkiyənin təklifləri ilə zənginləşdirilə biləcəyi də vurğulanmış, onun gerçəkləşdirilməsi üçün lazım gələn maliyyə dəstəyinin Komissiya tərəfindən saxlanılması məqsədi ilə yollar tapılması istənilmişdi.[1]

Türkiyə hökuməti Kardif toplantısı ilə əlaqədar da açıqlama verəsi (17.VI.1998) oldu. Burada:

1. Hökumətin 1997-ci il 14 dekabr tarixli açıqlamasında ortaya qoyulan parametrlərin keçərliliyi vurğulanırda.
2. Lüksemburqda Türkiyəyə qarşı qərəzli davranışın və onun tam üzvlüyə qəbulunun siyasi məsələlərlə bağlanılmasının yolverilməzliyi önə çəkilirdi.

AB Komissiyası Kardif qərarlarına uyğyn olaraq digər namizəd ölkələrlə birlikdə Türkiyə üçün də hazırladığı «İrəliləmə raportu»nu 1998-ci il noyabrın 4-də rəsmi Ankaraya təqdim etdi. Lakin AB-nin Avropa Şurasının Vyana Zirvəsində (XII. 1998) Türkiyənin Birliyə tam üzvlüyü ilə bağlı elə bir irəliləyiş baş vermədi. Vyana Zirvəsindən sonra Türkiyənin

---

[1] «Hürriyet» qəzeti. 16 fevral 1998-ci il.
[1] Türkiye İlerileme raporu – 4 kasım 1998. . http://www.mfa.gov.tr/turkce/grupa/ab/abab/ab.org.htm

AB-yə tam üzvlüyə qəbuluna yanaşmalara təsir göstərən bir sıra prosesIər yaşandı.

**Birincisi,** Almaniyada iqtidara gələn Sosial-Demokrat – Yaşıllar koalisiyası Türkiyə – AB münasibətlərinə daha ciddi yanaşdı. AB-yə İngiltərə və Avstriyanın dönəm başqanlıqlarından fərqli olaraq Almaniya dönəm başqanlığı müddətində bu sahədəki təmaslar sıxlaşdırıldı. Türkiyə və Almaniya Baş nazirlərinin - Bülənt Ecevit və Gerhard Şröderin – birincinin namizədliyi ilə bağlı birgə məktubu AB-yə göndərildi.[2] Burada Türkiyənin AB-dən gözlədikləri bütün tərəfləri və gerçəklikləri ilə ortaya qoyuldu.

Türkiyənin AB-yə tam üzvlüyə qəbulu onun Köln Zirvə toplantısında da (VI. 1999) dartışıldı. Almaniya tərəfindən hazırlanan və Türkiyənin AB-dən istədiklərini də əhatə edən sənədin layihəsi birmənalı qarşılanmadı. İngiltərə, Fransa onu dəstəkləsələr də Yunanıstan və digər üzv ölkələrin mənfi münasibəti ortaya çıxdı. Və nəticədə bu sənəd qəbul olunmadı.

Türkiyə XİN-nin 1999-cu il 4 iyun tarixli açıqlamasında Kölndəki bu mövqeyə münasibət bildirildi.[1] Burada yazılırdı:

- Almaniya Dönəm başqanlığının səyləri məmnuniyyətlə qarşılanmışdır;
- ancaq AB-nin Türkiyəyə yönəlik siyasətində hər hansı bir dəyişiklik baş verməmişdir;
- buna görə də Türkiyənin AB ilə əlaqələrində 1997-ci il 14 dekabr tarixli açıqlamada göstərilən yanaşma dəyişməyəcəkdir.

---

2 «Milliyet» qəzeti. 16 dekabr 1998-ci il.
1 «Milliyet» qəzeti. 6 iyun 1999-cu il.

**İkincisi**, Türkiyədə 1999-cu ildə baş verən dəhşətli zəlzələ və bu təbii fəlakətin doğurduğu problemlər onun beynəlxalq həyatına da təsir göstərdi. Belə ki, bu olaydan sonra:

a) AB ölkələrindən yardımlar artdı;

b) Yunanıstanın davranışında və Türkiyə – AB münasibətlərində bir yumşalma hiss olunmağa başladı.

Finlandiya Xarici İşlər naziri Halonen və komissar Van der Bruk Türkiyəyə yardımla bağlı Ankaraya təşrif buyurdular (27. VIII.1999).

Avropa Birliyi Xarici İşlər nazirlərinin Finlandiyada keçirilən qeyri-rəsmi toplantısında (4-5. IX.1999) Türkiyə ilə əlaqədar iki məsələ gündəmə gəldi:

1. Zəlzələ ilə bağlı olaraq Türkiyə ilə maliyyə işbirliyi
2. AB-nin genişlənməsi çərçivəsində xüsusi olaraq Türkiyənin namizədliyinin müzakirəsi.

Birinci məsələ ilə əlaqədar gəlinən qənaət belə oldu: zəlzələ fəlakəti ilə bağlı olaraq Türkiyəyə verilən 4 milyon avro məbləğindəki təcili yardıma əlavə kimi 30 milyon da ayrılması və Avropa Yatırım Bankından 500-600 milyon kredit buraxılması məqsədəuyğun sayılsın. İkinci məsələ ilə bağlı isə hər hansı bir qərar qəbul edilmədi.

AB Komissiyası, Kardif qərarlarına əsasən, namizəd ölkələr üçün hazırladığı raportlardan ikincisini sədri R. Prodi vasitəsi ilə 1999-cu il oktyabrın 13-də açıqladı.[1] Bu raportda Türkiyə bir daha üzvlüyə namizəd göstərilirdi. Və, Lüksemburq Zirvəsində digər ölkələr üçün edildiyi kimi, Türkiyəyə də konkret Qatılma Ortaqlığı Stratejisi təklif olundu.

---

[1] Türkiye – AB ilişkileri kronolojisi. www. mfa.qov.tr/ab.abab/ab.orq.

## § 3.Türkiyə Avropa Birliyinə namizəd ölkə kimi.

Türkiyənin, AB-yə tam üzvlüyə qəbulunu əngəlləyən təbii və süni problemləri dəf etməkdə, ardıcıl olması Birliyin rəhbərliyini reallıqlarla razılaşmağa məcbur etdi. AB-nin, ədalət və daxili məsələlərini müzakirə edən, Tampre (Finlandiya – X.1999) Zirvə toplantısı bu baxımdan önəmlidir. Zirvədə ayrıca olaraq AB-nin genişlənməsi prosesi və Türkiyənin də namizədliyi məsələsi qeyri-rəsmi olaraq nəzərdən keçirildi.

Az sonra (XI.1999) ATƏT-in İstanbuldakı Zirvə toplantısında iştirak edən AB üzvü dövlətlərin Xarici İşlər nazirlərinin şərəfinə verilən ziyafətdə Türkiyənin Birliklə münasibətlərinin çağdaş durumuna nəzər salındı. AB-nin Helsinki Zirvə toplantısı önü keçirilən bu «ziyafət diplomatiyası» tədbirində Türkiyənin namizədlik statusu ilə bağlı gördüyü işlər də incələndi.

Avropa Birliyi Türkiyənin AB yolunda çox əhəmiyyətli bir qərarı 11 – 12 dekabr Helsinkidə keçirilən Zirvə Toplantısında verdi. Ancaq bu qərara görə Türkiyəyə verilən namizədlik statusu Yunanıstanın təzyiqi ilə ağır şərtlərlə müşaiyət olundu. Türkiyənin namizədlik qərarı alındıqdan sonra AB Xarici Siyasət və Ortaq Müdafiə üzrə səlahiyyətli nümayəndəsi Xavyer Solana və AB Komissiyasının Xarici əlaqələrindən məsul nümayəndəsi Günter Verhengen «AB-nin şərtlərini müzakirə etmək üçün» Helsinkidən Ankaraya gəldilər. Türkiyənin baş naziri Bülənt Ecevid Helsinkiyə yola düşməzdən əvvəl belə söylədi: «Türkiyənin namizədlik statusu məsələsində qəbul edə bilməyəcəyimiz şərtlər ola bilər, amma bərabər hüquqlarla namizədliyimizin qəbul olunması Türkiyə üçün çox böyük qələbədir».

Əslində «namizədlik qərarı»nın mətni bir gün əvvəl Türkiyəyə göndərilmişdi. Finlandiya tərəfindən hazırlanan bu mətndə Türkiyə

üzərinə qoyulan Kipr və Lahey mövzusunda olan məsələlər çox yumşaq şəkildə ifadə olunmuşdu. Ancaq Finlandiyanın hazırladığı mətn 6 ay əvvəl Köln Zirvəsində olduğu kimi son məqamda dəyişdirildi. Yunanıstanın baş naziri Simitisin təzyiqi və israrı nəticəsində Kipr və Lahey mövzusundakı iradlar dəyişdirilərək kəskin vəziyyətə salındı. Belə ki, Yunanıstan əvvəllər türkiyənin təzyiqləri ilə Hollandiya, Almaniya və Fransanın «Kipr problemi» həll olunmayana kimi onun AB-yə tam hüquqlu üzv ola bilməyəcəyi israrlarını qıraraq AB-dən bu problem həll olunmasa belə, Kipr respublikasının Birliyə tam hüquqlu üzv ola biləcəyi məsələsini həll etdi. Yenə Yunanstanın təzyiqi ilə AB namizəd ölkələrə, «digər namizədlər və ya üzvlər ilə» olan sərhəd problemlərində Lahey Ədalət Məhkəməsinə müraciət edilməsinin vacibliyini ortaya qoydu. Əslində bu cümlədə sadəcə Türkiyə və Yunanstanın nəzərdə tutulduğu aydındır. Yunanıstanın bu ifadəni zorla mətnə saldırması Türkiyəni onun «ədalətindən şübhələndiyi» səbəbi ilə bugünə kimi tanımadığı bir beynəlxalq quruma müraciət etməsinə məcbur edir. AB bu problemlərin həllini müdafiə etməsi üçün ən geci 2004-cü ildən sonra vəziyyəti gözdən keçirəcəyini bildirdi.

Lakin bütün bunlara baxmayaraq, Helsinki Zirvə toplantısının Türkiyə ilə bağlı qərarları ilə onun AB ilə uzun müddətli əlaqələri tarixində yeni bir mərhələ başlandı. Yenə də qatılma dönəmində texniki işlərlə yanaşı siyasi hazırlığa da ehtiyac duyulduğu qeyd edildi. Bu Zirvədən sonra bir sıra tədbirlər görüldü:

1. Qatılma Ortaqlığı Sənədində yer alan məsələlərin həyata keçirilməsinə dair proqram Türkiyə hökuməti tərəfindən təsdiqləndi (19.III.2001). Bu proqram Xarici İşlər naziri tərəfindən AB-nin genişlənmə məsələləri üzrə səlahiyyətli komissarı G. Verhengenə çatdırıldı (26.III.2001).

2. Türkiyə – AB Birgə Şurasının Lüksemburqda 2001-ci il iyunun 26-da iclası oldu. Burada Türkiyənin üzvlük hazırlıqları ilə əlaqədar stratejisi nəzərdən keçirildi. Milli proqramda nəzərdə tutulanların tezliklə yerinə yetirilməsinə başlanılması məsləhət bilindi.

Avropa Birliyinin Nitsadakı toplantısında (7-11.XII.2000) qəbul edilən yekun sənədinin «Genişlənmə» bölümündə Türkiyəyə də yer ayrılmışdı. Burada:

- AB Ümumi İşlər Şurasında Türkiyənin Qatılma Ortaqlıq Sənədindəkiləri reallaşdırmasından məmnunluq bildirildi;
- Türkiyə ilə AB arasında daha sıx əlaqələr qurulması vurğulanmışdı.

Bu kimi məqamlara baxmayaraq 27 ölkənin yer aldığı bir genişlənmə perspektivi nəzərdən keçirilərkən burada Türkiyəyə yer verilmədi.Türkiyənin Ədliyyə naziri S. Türkün dediyi kimi, problemsiz Türkiyə qəbul olunmur, ancaq problemlərli Kipr isə qəbul edilir. Bütün bunlardan kifayət qədər rahatsızlıq duyan Türkiyə Fransa XİN-i tərəfindən həyata keçirilən dönəm başqanlığına və Komissiyaya müvafiq müraciətlər etdi. Onlardan lazımi açıqlamalar istənildi. Nəticədə Birliyin qurumlarından birinin toplantısında (21. XII.2000) Nitsa Sənədinin «Əlavələr» bölümündəki «AB-nin genişlənməsinə dair Təlimatın» birinci səhifəsinə əlavə olundu. Burada «qatılma müzakirələrinə felən başlamış olan namizəd ölkələrin nəzərə alındığı» yazıldı.

AB-nin Göteburq (VI.2001) və Laeken, Brüssel (XII.2001) Zirvə toplantılarında Birliyin gələcəyinə dair raportun müzakirəsi zamanı Türkiyə ilə bağlı bəzi məqamlara da toxunuldu. AB – Türkiyə münasibətləri tarixində «Nitsadan sonrakı dövr» adlandırılan mərhələdə də müəyyən işlər görüldü.

AB Komissiyası tərəfindən 2001-ci ildə «Türkiyə İrəliləmə Raportu» və «Strateji Sənədi haqqında Açıqlama» hazırlandı.[1] Bu iki sənəddə ifadə olunan fikirləri belə qruplaşdırmaq olar:

- Kopenhagen qatılma meyarlarına uyğun olaraq lazımi konstitusiya dəyişikliklərinin gerçəkləşdirilməsinin önəmli bir addım olması Raportda diqqətə yetirilirdi;
- təməl haqq və azadlıqlara yönəlik tədbirlər sahəsindəki bəzi çatışmazlıqların Milli proqramın həyata keçirilməsi ilə aradan qalxacağı bildirilirdi;
- Türkiyədə iqtisadi, sosial və mədəni haqların yaxşılaşdırılması istiqamətində atılan addımların, həbsxana sistemindəki yeniliklərin səmərəli olmaları üçün vaxtın lazım gəldiyi qeyd edilirdi;
- siyasi bölümün xülasəsində Türkiyənin bu sahədəki bəzi irəliləmələri göstərilsə də Kopenhagen kriteriyalarının tamamilə reallaşdırılmaması vurğulanırdı;
- Türkiyə iqtisadiyyatında yaranan böhranlar makroiqtisadi təhlil baxımından dəyərləndirilir və onların aradan qaldırılacağına inam önə çəkilirdi.

Türkiyə ilə AB arasında Maliyyə işbirliyinə dair 2001-ci ilin iyulunda qəbul edilən sənəd də önəmlidir. Burada ötən dövrdə bu sahədə görülən işlər təhlil edilir və perspektivlər nəzərdən keçirilirdi.

Bu yaxınlarda Avropa Birliyi Xarici İşlər Komitəsinin sədri Tom Spenser səlahiyyətləri bitdikdən sonra bir sıra açıqlamalar vermişdir.[2] Onun Türkiyə ilə bağlı verdiyi açıqlamalar çox maraqlıdır: «Avropa Birliyi əslində Türkiyəni heç zaman AB-yə qəbul etməyi düşünmədi. Sadəcə

---

[1] 2001 Türkiye İlerleme Raporu. www.eurcptr.org.tr
[2] «Star» qəzeti. 13 iyul 2000-ci il.

# NƏTİCƏ

Türkiyə – Avropa Birliyi münasibətləri müxtəlif və çoxlu mərhələlərdən keçərək günümüzə qədər gəlib çıxmışdır. Bu prosesdə irəliləyişlər, habelə xeyli anlaşılmazlıqlar, süni yaradılan problemlər də olmuşdur. Türkiyənin AB-yə tam üzvlüyə dair israrlı mövqeyi əlaqələrin davamlı olmasında mühüm rol oynamışdır.

11 sentyabr hadisələrindən sonrakı dünyanın gerçəklikləri və durumu çağdaş beynəlxalq münasibətlərdə Türkiyənin önəmini xeyli artırmışdır. Beynəlxalq terrorizmə qarşı mübarizədə Türkiyənin qətiyyətli və təsirli fəaliyyəti, onun ABŞ ilə strateji əməkdaşlığının getdikcə qüvvətlənməsi göz önündədir. Bu cəhət Türkiyənin AB ilə münasibətlərinə də təsir göstərən məqamlardandır.

Türkiyə – AB münasibətlərində üzərində dayanılması vacib olan bir sıra məsələlər vardır:

1. Türkiyənin AB-yə tam üzvlüyə qəbulda ardıcıl xətt yeritməsi onlar arasındakı əlaqələrin davamlılığını şərtləndirən başlıca faktordur.
2. Avropa Birliyinə qəbulda Türkiyənin yoluna sipər çəkən maneələr sırasında «görünməyən» əngəllər də mühüm rol oynayır. Bunlar tarix, din, mədəniyyət və s. ilə bağlıdır.

3. Münasibətlərin gedişində ortaya çıxan məqamlardan biri də texniki işlərdir. Başqa sözlə desək, Avropa Birliyinin ortaq kənd təsərrüfatı, pul, xarici siyasət və s. ilə müəyyən mərhələlərdə problemlər yaratmışdır. Sovetlər İttifaqının dağılması bu problemlərə əlavə yüklər gətirmişdir. Belə ki, ortaya bir «xaricə qapalı Avropa qalasına yönəlmə sürətlənəcək, yoxsa AB dinamik, iqtisadi və siyasi super gücə çevriləcəkdir?» dilemması çıxmışdır. Çünki bunlar da müxtəlif baxımlardan AB üçün problemlər yaradır.
4. Türkiyənin AB-yə gəlişini əngəlləyən amillər sırasında rəsmi Ankaranın ABŞ ilə strateji tərəfdaşlığı da vurğulanır. Müasir dövrdəki Türkiyə – ABŞ yaxınlaşmasından xoşhal görünməyən Qərbi Avropa bu məsələni də diqqət qaçırmır. Bütün bunlara görə də Türkiyə bir növ, AB, yoxsa ABŞ seçimi qarşısında dayanmış kimi görünür. Bununla bağlı da ABŞ Türkiyə üçün AB-nin alternativi ola bilər kimi fikirlər də səslənməkdədir. Lakin son dövrün hadisələri də təsdiqləyir ki, Türkiyə dövləti Avropa Birliyinə qatılmaqda israrlıdır.
5. Çağdaş dünyada gedən proseslər - 11 sentyabr olaylarından sonrakı şərait Türkiyənin beynəlxalq – məhəlli rolunu artırmaqdadır. Bunu qısaca belə ifadə etmək olar:

- Türkiyənin bu və ya digər sahələrdəki danılmaz potensialı onun AB ilə münasibətlərinə, mövcud perspektivlərinə də təsir göstərməkdədir;
- regional – beynəlxalq problemlərin həllində Türkiyənin artan və mütləq nəzərə alınmalı olan rolu AB-nin son toplantılarında da diqqəti cəlb etmişdir.

6. Türkiyə – AB münasibətlərində ölkələrin ictimaiyyətlərininin mövqelərinin nəzərə alınması, mövcud anlaşılmazlıqların aradan qaldırılması və əlaqələrin intensivləşdirilməsi də vacibdir.

Türkiyədəki siyasi baxış və güclərin (modernistlər, millətçilər, islamçılar) mövqeləri də onu AB ilə münasibətlərinin gələcəyində, şəksiz, önəm daşıyacaqdır. Eyni zamanda Avropa Birliyinə daxil olan dövlətlərin ictimaiyyətlərinin çoxçalarlı baxışları da nəzərə alınmalıdır. Beynəlxalq proseslərin çağdaş gerçəklikləri Türkiyənin yaxın gələcəkdə Avropa Birliyinə tam üzvlüyə qəbulunun qaçılmazlığını şərtləndirməkdədir.

Avropa Birliyi – Türkiyə münasibətlərinin perspektivləri hazırda da müxtəlif siyasi dairələrdə – qurumlarda müzakirə olunur. Türkiyənin bir sıra dövlət adamları və siyasi liderləri problemə dair baxış və mövqelərini bir daha nəzərdən keçirirlər. Bu ilin iyun ayının 7-də Ankarada siyasi liderlərin zirvə toplantısında Türkiyənin Avropa Birliyinə qatılması ilə bağlı son durum müzakirə olundu. Siyasi liderlər Türkiyənin Avropa Birliyinə qatılması ilə bağlı əsasən yekdil mövqe ortaya

qoydular. Siyasi proseslərin təhlili göstərir ki, indi söz Avropa Birliyinindir.

# BİBLİOQRAFİYA

## I. Sənəd və materiallar


1. Türkiye Cumhuriyyeti Anayasası. Ankara, 1982.
2. Türkiye ile Avrupa Ekonomik Topluluğu Arasında bir Ortaklılık Yaratan Anlaşma (Ankara Anlaşması) – 12 Eylül 1963.
3. Avrupa Ekonomik Topluluğu ile Türkiye Arasında Ortaklık İlişkisi Kurulmasına Dair Anlaşmaya Katma Protokol – 23 Kasım 1970.
4. Avrupa Akdeniz Süreci – 1995.
5. Ortaklık Konseyinin Siyasi Dialog ve Kurumsal İşbirliğine İlişkin Kararı (30 Ekim 1995).
6. Mali İşbirliğine İlişkin Topluluk Bildirgesi (6 Mart 1995)
7. Avrupa Komisyonunun Türkiye için Avrupa Stratejisi Uygulamaya Yönelik Başlangıç Önerileri (4 Mart 1998)
8. Türkiye – AB İlişkileri Kronolojisi.
9. Türkiye İçin Avrupa Stratejisi.
10. Avrupa Birliği Özet Ulusal Proqramı.
11. Katılım Ortaklığı Belgesi – 8 Kasım 2000.
12. Türkiye – AB Mali İşbirliği – Temmuz 2001.
13. Svoboda Raporu – 14 Şubat 2001.
14. Komisyonun hazırladığı 2001 Türkiye İlerleme Raporu ve Strateji Belgesi Hakkında Açıklama.
15. Türkiye – AB ilişkilerinde son durum – Temmuz 2001.
16. Katılım Ortaklığı Belgesi İle İlgili Hükümet Açıklaması, 9 Kasım 2000.

17. 10 – 11 Aralık 1999 Helsinki Zirvesi Başkanlık Sonuç Belgesi.

18. The official report E. Rajna – 18 Aralık 1989.

19. Cyprus 2000: Regular Report, European Union Commission – 8 November 2000.

## II. Dövri mətbuat

a) Azərbaycan dilində

1. «Yeni Müsavat» qəzeti - 1 mart 2002.
2. «Ayna» qəzeti – 15 dekabr 1997.

b) Xarici dillərdə

1. «Hürriyet» qəzeti - 16 fevral 1998.
2. «Milliyet» qəzeti - 16 dekabr 1998.
3. «Milliyet» qəzeti - 6 iyun 1999.
4. «Star» qəzeti – 13 iyul 2000.
5. «Stratejik analiz» jurnalı, №8 - İstanbul, 2000.
6. «Avrasya etüdleri» jurnalı, №3 – İstanbul, 1995.
7. «Perceptions» jurnalı, №4 – 2001.

## III. İnternet saytları

1. www.mfa.gov.com.tr
2. www.nerede.com.tr
3. www.eureptr.org.tr

4. www.abgs.gov.tr
5. www.europa.eu.int
6. www.europarl.eu.int
7. www.esc.eu.int
8. www.eur-op.eu.int
9. www.ue.eu.int

## IV.Ədəbiyyat

1. Ali Bulaç. Avrupa Birliği ve Türkiye. İstanbul, 2001.
2. Avrupa Birliği El Kitabı. Ankara, 1995.
3. Alejandro V. Lorca. Türkiye: Orta Asyaya Açılan Kapı. «Avrasya etüdleri» jurnalı, №3, 1995.
4. Deniz Vardar. Türkiyenin Batı Avrupa kurumlarına girişi ve kamuoyu. «Türkiye Dış Politikasının Analizi», İstanbul, 1994.
5. Deniz Vardar. Türkiye Avrupa Topluluğu ilişkileri. «Türkiye Dış Politikasının Analizi», İstanbul, 1994.
6. Gencer Özcan. Türkiyedeki siyasal rejim ve dış politika, 1983 – 1993. «Türkiye Dış Politikasının Analizi», İstanbul, 1994.
7. З. Бжезинский. Великая шахматная доска. Москва, 1999.
8. Fahir Armaoğlu. XX yüzyıl siyasal tarihi. İstanbul, 1995.
9. Foreign Policy of Turkey. Ankara, 1999.
10. Foreign Policy of Turkey. Ankara, 2001.
11. Esra Çayhan.Türkiye – AB ilişkileri. İstanbul,1997.
12. Ergin Nomer ve Özer Eskiyurt. Avrupa Sözleşmeleri. İstanbul, 1975.

Cologne meeting of European Union, goes to check above prospect of Turkey to participate in the European Union.

In summary it is considered the specified problems in everyone to the chapter and the result is given.

At the end of the dissertation the list of the used literature is informed.

# ƏLAVƏLƏR





| ÜLKELER | TAM ÜYELİK MÜRACAATI | KOMİSYON GÖRÜŞÜ | ÜYELİK MÜZAKERELERİ | AB ÜYELİĞİ |
|---|---|---|---|---|
| **I. GENİŞLEME(*)** | | | | |
| **İngiltere** | Mayıs 1967 | Ekim 1960 | Haziran 1970 | 1 Ocak 1973 |
| **İrlanda** | Mayıs 1967 | Ekim 1960 | Haziran 1970 | 1 Ocak 1973 |
| **Danimarka** | Mayıs 1967 | Ekim 1960 | Haziran 1970 | 1 Ocak 1973 |
| **Norveç(**)** | Mayıs 1967 | Ekim 1960 | Haziran 1970 | 1 Ocak 1973 |
| **II. GENİŞLEME** | | | | |
| **Yunanistan(***)** | Haziran 1975 | Ocak 1976 | Temmuz 1976 | 1 Ocak 1981 |
| **III. GENİŞLEME** | | | | |
| **Portekiz** | Mart 1977 | Mayıs 1978 | Kasım 1978 | 1 Ocak 1986 |
| **İspanya** | Temmuz 1977 | Kasım 1978 | Şubat 1979 | 1 Ocak 1986 |
| **IV. GENİŞLEME** | | | | |
| **İsveç** | 1 Temmuz 1991 | 31 Temmuz 1992 | 1 Şubat 1993 | 1 Ocak 1995 |
| **Finlandiya** | 18 Mart 1992 | 4 Kasım 1992 | 1 Şubat 1993 | 1 Ocak 1995 |
| **Avusturya** | 17 Temmuz 1989 | 1 Ağustos 1991 | 1 Şubat 1993 | 1 Ocak 1995 |
| **BAŞVURULAR** | | | | |
| **Türkiye** | 14 Nisan 1987 | 18 Aralık 1989 | - | - |
| **G.Kıbrıs Rum K.** | 4 Temmuz 1990 | 30 Haziran 1993 | 31 Mart 1998 | - |
| **Malta(****)** | 16 Temmuz 1990 | 30 Haziran 1993 | - | - |
| **İsviçre** | 20 Mayıs 1992 | - | - | - |
| **Norveç** | 25 Kasım 1992 | 24 Mart 1993 | 5 Nisan 1993 | - |
| **Macaristan** | 31 Mart 1994 | 15 Temmuz 1997 | 31 Mart 1998 | - |
| **Polonya** | 5 Nisan 1994 | 15 Temmuz 1997 | 31 Mart 1998 | - |

| | | | | |
|---|---|---|---|---|
| Romanya | 22 Haziran 1995 | 15 Temmuz 1997 | - | - |
| Slovakya | 26 Haziran 1995 | 15 Temmuz 1997 | - | - |

| ÜLKELER | TAM ÜYELİK MÜRACAATI | KOMİSYON GÖRÜŞÜ | ÜYELİK MÜZAKERELERİ | AB ÜYELİĞİ |
|---|---|---|---|---|
| Letonya | 13 Ekim 1995 | 15 Temmuz 1997 | - | - |
| Estonya | 24 Kasım 1995 | 15 Temmuz 1997 | 31 Mart 1998 | - |
| Litvanya | 8 Aralık 1995 | 15 Temmuz 1997 | - | - |
| Bulgaristan | 14 Aralık1995 | 15 Temmuz 1997 | - | - |
| Çek Cumhuriyeti | 17 Ocak 1996 | 15 Temmuz 1997 | 31 Mart 1998 | - |
| Slovenya | 10 Haziran 1996 | 15 Temmuz 1997 | 31 Mart 1998 | - |

# Türkiye ile Avrupa Ekonomik Topluluğu Arasında bir Ortaklıl Yaratan Anlaşma (Ankara Anlaşması)-12 Eylül 1963

BAŞLANGIÇ

Bir yandan,
Türkiye Cumhurbaşkanı,
Öte yandan,
Majeste Belçika Kralı,
Federal Almanya Cumhurbaşkanı,
Fransa Cumhurbaşkanı,
İtalya Cumhurbaşkanı,
Altes Ruayal Lüksemburg Büyük Düşesi,
Majeste Hollanda Kraliçesi,
ve Avrupa Ekonomik Topluluğu Konseyi,

Türk halkı ile Avrupa Ekonomik Topluluğu içinde bir araya gelmiş halkla arasında gittikçe daha sıkı bağlar kurmaya AZİMLİ OLARAK;

Türkiye ve Avrupa Ekonomik Topluluğu'ndaki yaşama şartlarının, hızlandırılmı bir ekonomi ilerleyişi ve uyumlu bir alış veriş genişlemesi ile devamlı olaral iyileşmesini, böylece Türkiye ekonomisi ile Topluluk üyesi Devletlerii ekonomileri arasındaki arayı azaltmayı sağlamaya KARARLI OLARAK;

Türk ekonomisinin kalkınmasının ortaya koyduğu özel sorunları ve belli bi sürede Türkiye'ye bir ekonomik yardım yapılması gerekliliğini GÖZÖNÜNDI BULUNDURARAK;

Türk halkının yaşama seviyesini iyileştirme çabasına, Avrupa Ekonomi Topluluğu'nun getireceği desteğin, ileride Türkiye'nin Topluluğa katılmasın kolaylaştıracağını KABUL EDEREK;

Avrupa Ekonomik Topluluğunu kuran Antlaşma'nın esindiği ülküyü birlikt izliyerek, barış ve hürriyet güvencesini pekleştirmeye AZMEDEREK;

Avrupa Ekonomik Topluluğu'nu kuran Antlaşma'nın 238. maddesi uyarınc Türkiye ile Avrupa Ekonomik Topluluğu arasında ortaklık yaratan bir anlaşm aktini KARARLAŞTIRMIŞLAR ve bunun için

TÜRKİYE CUMHURBAŞKANI:
Dışişleri Bakanı Bay Feridun Cemal ERKİN'i
MAJESTE BELÇİKA KRALI:
Başbakan Yardımcısı ve Dışişleri Bakanı Bay Paul Henri SPAAK'ı
FEDERAL ALMANYA CUMHURBAŞKANI
Dışişleri Bakanı Bay Gerhard SCHROEDER'i
FRANSA CUMHURBAŞKANI:
Dışişleri Bakanı Bay Maurce COUVE de MURVILLE'i

İTALYA CUMHURBAŞKANI:
Hazine Bakanı Bay Emilio COLOUMBO'yu
ALTES RUAYAL LÜKSEMBURG BÜYÜK DÜŞESİ:
Hükümet Başkan Yardımcısı ve Dışişleri Bakanı Bay Eugène SCHAUS'u
MAJESTE HOLANDA KRALİÇESİ:
Dışişleri Bakanı Bay Joseph M. A. H. LUNS'u ve AVRUPA EKONOMİK TOPLULUĞ[U]
KONSEYİ:

Avrupa Ekonomik Topluluğu Konseyinin şimdiki Başkanı ve Hollanda Dışişler[i]
Bakanı Bay Joseph M. A. H. LUNS'u

tam yetki ile atamışlardır. Adları geçenler, yetki belgelerinin karşılıklı olara[k]
verilmesinden ve bunların usul ve şekil bakımından uygunluklarını[n]
anlaşılmasından sonra, aşağıdaki hükümler üzerinde uyuşmuşlardır;

KISIM: I

İlkeler
Madde - 1.

Bu Antlaşma ile Türkiye ile Avrupa Ekonomik Topluluğu arasında bir Ortaklı[k]
kurulmuştur.

Madde - 2.

1. Anlaşma'nın amacı, Türkiye ekonomisinin hızlandırılmış kalkınmasını ve Tür[k]
halkının çalıştırılma seviyesinin ve yaşama şartlarının yükseltilmesini sağlam[a]
gereğini tümü ile gözönünde bulundurarak, Taraflar arasındaki ticari v[e]
ekonomik ilişkileri aralıksız ve dengeli olarak güçlendirmeyi teşvik etmektir.

2. Yukarıdaki fıkrada belirtilen amaçların gerçekleştirilmesi için 3, 4 ve 5
maddelerde gösterilen şartlara ve usullere göre bir gümrük birliğinin gittikç[e]
gelişen şekilde kurulması öngörülmüştür.

3. Ortaklığın:
a) Bir hazırlık dönemi,
b) Bir geçiş dönemi,
c) Bir son dönemi,
vardır.

Madde - 3.

1. Hazırlık döneminde Türkiye, geçiş dönemi ve son dönem boyunca kendisin[e]
düşecek yükümlülükleri üstlenebilmek için, Topluluğun yardımı ile ekonomisi[n]
güçlendirir.

Bu hazırlık dönemine ve özellikle Topluluğun yardımına ilişkin uygulama usulleri
Anlaşma'ya ekli Geçici Protokol ile Mali Protokol'de belirtilmiştir.

2. Hazırlık döneminin süresi, Geçici Protokol'de öngörülen usullere uygu[n]
uzatma dışında, beş yıldır.

Geçiş dönemine, Geçici Protokol'ün 1. maddesinde öngörülen şartlara v[e]
usullere uyularak geçilir.

Madde - 4.

1. Geçiş döneminde Akit Taraflar, karşılıklı ve dengeli yükümlülükler esas üzerinden:

- Türkiye ile Topluluk arasında bir gümrük birliğinin gittikçe gelişen şekilde yerleşmesini,

Ortaklığın iyi işlemesini sağlamak için Türkiye'nin ekonomik politikalarının Topluluğunkilere yaklaştırılmasını, bunun için de gerekli ortak eylemlerin geliştirilmesini sağlar.

2. Bu dönemin süresi, birlikte öngörülebilecek istisnalar saklı kalmak üzere, on iki yılı geçemez. Bu istisnalar, gümrük birliğinin makûl bir süre içinde kuruluş tamamlanmasına engel olamaz.

Madde - 5.

Son dönem gümrük birliğinin dayanak ve Akit Tarafların ekonomi politikaları arasındaki koordinasyonun güçlendirilmesini gerektirir.

Madde - 6.

Ortaklık rejiminin uygulanmasını ve gittikçe gelişmesini sağlamak için Akit Taraflar, Anlaşma ile verilen görevlerin sınırları içinde eylemde bulunan bir Ortaklık Konseyi'nde toplanırlar.

Madde - 7.

Akit Taraflar, bu Anlaşma'dan doğan yükümlülüklerin yerine getirilmesini sağlayıcı her türlü genel ve özel tedbirleri alırlar.

Taraflar, Anlaşma hedeflerinin gerçekleştirilmesini tehlikeye düşürülebilecek her türlü tedbirden sakınırlar.

KISIM: II
Geçiş döneminin uygulanmaya konması

Madde - 8.

4. maddede anılan amaçların gerçekleşmesi için Ortaklık Konseyi, geçiş döneminin başlamasından önce ve Geçici Protokolün 1. maddesinde öngörülen usule göre, Topluluğu kuran Antlaşma'nın kavradığı ve gözönünde bulundurulması gereken alanlarla, özellikle bu kısımda gözetilenlere mahsus hükümlerin uygulama şartlarını, usullerini, sıra ve sürelerini yararlı görülecek her türlü korunma kurallarını tespit eder.

Madde - 9.

Akit Taraflar, Anlaşma'nın uygulanma alanında, 8. maddenin uygulanması ile ilgili olarak ortaya konabilecek özel hükümler saklı kalmak üzere, uyrukluk dolayısıyla uygulanan her türlü ayrımın, Topluluğu kuran Anlaşmanın 7 maddesinde anılan ilke uyarınca yasak olduğunu kabul ederler.

BÖLÜM: 1.

Gümrük Birliği
Madde - 10.

1. Anlaşma'nın 2. maddesinin 2. fıkrasında öngörülen gümrük birliği, mal alı verişlerinin tümünü kavrar.

2. Gümrük Birliği.

- Topluluk üyesi Devletlerle Türkiye arasında, ithalâtta olduğu gibi ihracatt gümrük vergileri ve eşit etkili resimlerin ve miktar kısıtlamalarının, mill üretime, Anlaşmanın hedeflerine aykırı bir koruma sağlamayı gözeten eşit etkil başka her türlü tedbirin yasaklanmasını;
- Türkiye'nin üçüncü memleketlerle ilişkilerinde Topluluğun Ortak Gümrü Tarifesi'nin kabulünü ve Toplulukça dış ticaret konusunda uygulanan sai mevzuata yaklaşmayı kapsar.

BÖLÜM: 2.
Tarım
Madde - 11.

1. Ortaklık rejimi, Topluluğun ortak tarım politikasını gözönünde bulundura özel usullere göre, tarımı ve tarım ürünleri alış verişini de kavrar.

2. Tarım ürününden, Topluluğu kuran Antlaşma'nın II. Ekinin konusu olan ve sözi edilen Antlaşma'nın 38. maddesinin 3. fıkrası hükümlerinin uygulanması ile hale tamamlanmış bulunan listede sayılı ürünler anlaşılır.

BÖLÜM: 3.
Ekonomik nitelikteki sair hükümler
Madde - 12.

Akit Taraflar, aralarında serbest işçi akımını kademeli olarak gerçekleştirmel için, Topluluğu kuran Antlaşma'nın 48, 49 ve 50. maddelerinden esinlenmekt uyuşmuşlardır.

Madde - 13.

Akit Taraflar, yerleşme serbestliği kısıtlamalarını aralarında kaldırmak için Topluluğu kuran Antlaşma'nın 52 ilâ 56. (Dahil) maddeleri ile 58. maddesinde esinlenmekte uyuşmuşlardır.

Madde - 14.

Akit Taraflar, hizmet edimi serbestliği kısıtlamalarını aralarında kaldırmak için Topluluğu kuran Antlaşma'nın 55, 56 ve 58 ilâ 65. (Dahil) maddelerinde esinlenmekte uyuşmuşlardır.

Madde - 15.

Topluluğu kuran Antlaşma'nın ulaştırma ile ilgili hükümlerinin ve bunları uygulanması dolayısıyla girişilmiş olan tasarrufların Türkiye'ye teşmili şartları v usulleri, Türkiye'nin coğrafya durumu gözönünde bulundurularak düzenlenir.

Madde - 16.

Akit Taraflar, Topluluğu kuran Antlaşma'nın üçüncü büyük bölümünün 1

kısmında yer alan rekabet, vergileme ve mevzuatın yaklaştırılması ile ilgil hükümlerde anılan ilkelerin, ortaklık ilişkilerinde uygulanması gerektiğini kabu ederler.

Madde - 17.

Anlaşma'ya Taraf olan her Devlet, ekonomisine, fiyat seviyesi kararlılığı içind devamlı ve dengeli bir genişleme sağlarken, genel ödeme bilançosuna deng sağlamak ve parasına olan güveni devam ettirmek için gerekli ekonom politikasını uygular.

Taraf Devlet, bu hedeflere ulaşmak için konjonktür politikası ve özellikle mal politika ve para politikası uygular.

Madde - 18.

Anlaşma'ya Taraf olan her Devlet, kambiyo kurları konusunda Ortakl amaçlarının gerçekleştirilmesini sağlamaya elverişli bir politika uygular.

Madde - 19.

Türkiye ve Topluluk üyesi Devletler, Anlaşma'nın uygulanmasında mal, hizmet sermaye ve kişi akımının aralarında serbestleştirildiği ölçüde, mal, hizmet v sermaye alış verişlerine ilişkin ödeme veya transferlerle ücret ve sermay transferlerinin, alacaklının veya faydalananların ikamet ettikleri memleke parasıyla yapılmasına müsaade ederler.

Madde - 20.

Akit Taraflar, Anlaşma amaçlarının gerçekleştirilmesine yarayan Türkiye il Topluluk üyesi Devletler arasındaki sermaye hareketlerini kolaylaştırmak iç aralarında danışırlar.

Akit Taraflar, Topluluk memleketlerinden gelen ve Türk ekonomisini kalkınmasına yardımı olabilecek sermayelerin Türkiye'de yatırımını teşvik ede her çeşit aracı araştırmaya çabalarlar.

Her üye Devlet ülkesinde ikamet edenler, Türkiye'nin başka bir üye Devlete vey üçüncü bir memlekete tanıdığı bütün kolaylıklardan, özellikle yabancı sermay eylemi ile ilgili kambiyo ve vergi konularındaki kolaylıklardan yararlanırlar.

Madde - 21.

Akit Taraflar, üçüncü memleketlerin ileride Topluluğa katılmaları veya orta olmaları halleri de dahil olmak üzere, üçüncü memleketler karşısındaki ticare politikalarının koordinasyonunu ve bu alandaki karşılıklı çıkarlarının korunmasır sağlamaya elverişli bir danışma usulünü hazırlama konusunda uyuşmuşlardır.

KISIM: III
Genel ve son hükümler

Madde - 22.

1. Anlaşma ile belirtilen amaçların gerçekleştirilmesi için, Anlaşma'nı öngördüğü hallerde Ortaklık Konseyi'nin karar yetkisi vardır. İki taraftan her biri verilmiş kararların yerine getirilmesinin gerektirdiği tedbirleri almakl

yükümlüdür. Ortaklık Konseyi yararlı tavsiyelerde de bulunabilir.

2. Ortaklık Konseyi, Anlaşma'nın hedeflerini gözönünde tutarak, ortaklık rejim sonuçlarını belli aralıklarla inceler. Bununla beraber, hazırlık dönemi boyunca bu incelemeler bir görüş teatisi sınırları içinde kalır.

3. Geçiş döneminin başlaması ile, ortaklık rejiminin gerçekleşmesi yolunda Anlaşma amaçlarından birine ulaşmak için, Akit Taraflar'ın bir ortak davranış gerekli görüldüğü takdirde, Anlaşma bunun için gerekli davranış yetkisin öngörmese bile, Ortaklık Konseyi uygun kararları alır.

Madde - 23.

Ortaklık Konseyi'ni, bir yandan Türkiye Hükümeti'nden üyeler, öte yandan Topluluk üyesi Devletler Hükümetleri'nden, Konseyi'nden ve Komisyonu'ndan üyeler meydana getirir.

Ortaklık Konseyi üyeleri, İçtüzüğün öngördüğü şartlarla kendilerini temsi ettirebilirler.

Ortaklık Konseyi, kararlarını oy birliği ile alır.

Madde - 24.

Ortaklık Konseyi başkanlığı, altışar aylık süreler için Türkiye ile Topluluk temsilcilerinden biri tarafından, sıra ile yapılır. İlk başkanlık süresi Ortaklık Konseyi kararı ile kısaltılabilir.

Ortaklık Konseyi İçtüzüğünü yapar.

Ortaklık Konseyi, görevlerinde kendisine yardım edebilecek her komiteyi ve özellikle Anlaşma'nın iyi yürütülmesi için gerekli işbirliği devamlılığını sağlayacak bir komite kurmaya karar verebilir.

Ortaklık Konseyi bu komitelerin görev ve yetkilerini belirtir.

Madde - 25.

1. Her Akit Taraf, Anlaşma'nın uygulama ve yorumu ile ilgili ve Türkiye'yi veya Topluluğu, Topluluk üyesi bir Devleti ilgilendiren her anlaşmazlığı Ortaklık Konseyine getirebilir.

2. Ortaklık Konseyi Anlaşmazlığı karar yolu ile çözebilir; keza, anlaşmazlığı Avrupa Toplulukları Adalet Divanı'na ve mevcut herhangi bir başka yargı merciine götürmeyi kararlaştırabilir.

3. Taraflardan her biri, kararın veya hükmün yerine getirilmesinin gerektirdiği tedbirleri almakla yükümlüdür.

4. Anlaşmazlık, işbu maddenin 2. fıkrasına göre çözülememiş ise, Akit Taraflar'ın geçiş dönemi ve son dönemde başvurabilecekleri tahkim ve sair yargı usuli yollarını, Anlaşma'nın 8. maddesi uyarınca Ortaklık Konseyi düzenler.

Madde - 26.

Anlaşma'nın hükümleri, Avrupa Kömür ve Çelik Topluluğu'nun yetki alanına giren